www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 may 2019-cu il Cümə axşamı № 111 (7281) Qiyməti 60 qəpik

**Xəbər**

## Rusiyada yoxa çıxan azərbaycanlı leytenant qızın meyiti tapıldı

yazısı səh.2-də

**Gündəm**

### Fazil Məmmədovun 5 kadrı istintaqa cəlb olundu - şok maliyyə maxinasiyaları



Vergilər Nazirliyində antikorrupsiya əməliyyatı-sabiq nazirin dövründə başlamış vergi yeyintiləri üzə çıxdı; Vergilər Nazirliyi və Baş Prokurorluq birgə məlumat yaydı...

yazısı səh.4-də

### Dağılan birliklər, inhisarçı liderlər və passiv müxalifət...

yazısı səh.3-də

### 165 saylı marşrutun sürücüsü ağır qəza törətdi, ilginc faktlar üzə çıxdı

yazısı səh.10-da

### "ABŞ-İran qarşıdurmasında Aİ Vaşinqtonun deyil, Tehranın müttəfiqidir" - politoloq

yazısı səh.12-də

### Kiçik və orta sahibkarlığın problemləri və çıxış yolu

yazısı səh.13-də

### 4 milyona yaxın Venesuela qaçqını dünyaya səpələnir

yazısı səh.12-də

### Xəzər dənizində külək elektrik stansiyası: mif, yoxsa reallıq...

yazısı səh.15-də

### "İstanbul AKP üçün həyati və siyasi gələcək məsələsidir" - ekspert

yazısı səh.12-də

**Ramazan ayının 18-ci günü**

İftar 20.13. İmsaq 03.32-dək (QMİ)

18-ci günün duası: "İlahi, bu oruclaq ayının səhərlərinin bərəkətini mənə düşündür! Belə bir gündə Ramazan ayının işıq və nuru ilə qəlbimi işıqlandır! Mənim bütün bədən üzvlərimi bu ayda olan gözəl əməlləri yerinə yetirməyə müvəffəq et! Ey, qəlbləri nurlandıran Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

Bu gün 1-ci Qədr gecəsidir

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# ERMƏNİSTAN XÜSUSİ XİDMƏTİ ORQANLARINA SATILAN İKİ XAİNİN MİSKİN HEKAYƏSİ - SENSASİON FAKTLAR

Düşmən ölkənin Azərbaycana qarşı təxribat planlarında yer alan satqınlar - Abbaszadə-Məhərrəmov tandemi haqda ilginc detallar




yazısı səh.9-da

## Ermənistanda panika - "Ölkənin və inqilabın altına mina qoyulub..."

İşğalçı ölkədə Qarabağ məsələsi yox, Qarabağ klanı önə çıxır, "Moskvanın İrəvana qarşı qəsd planı var" iddiaları artır; sabiq **XİN başçısı:** "Paşinyan gec-tez devriləcək..."

yazısı səh.8-də



*Aqil Abbas:*

### "Final oyunu ərəfəsində Azərbaycana ləkə atmaq istəyən qüvvələr var, şou düzəldirlər"

yazısı səh.3-də



*Fəzail Ağamalı:*

### "Qraçov Elçibəyə zəng vurub dedi ki..."

yazısı səh.7-də



*Bahar Muradova:*

### "Biz Avropa İttifaqına üzv olacağımızı bəyan etməmişik"

yazısı səh.5-də

23 may 2019

YENİ MÜSAVAT
N 111 (7281) 23 may 2019

# Prezident və birinci xanım "Sovetski"də vətəndaşların problemləri ilə tanış oldular

**Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 22-də Bakının Yasamal rayonu ərazisində yerləşən «Təzəpir» məscidinin qarşısındakı bağın və Füzuli küçəsi boyunca salınmış Mərkəzi Parkın açılışında iştirak ediblər.**

Bu barədə prezidentin mətbuat xidməti məlumat yayıb.





«Təzəpir» məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın (keçmiş "Sovetski" adlanan ərazidə) açılışı zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli abidəsinin önündə sakinlərlə görüşüb söhbət ediblər.

"Report" xəbər verir ki, dövlət başçısı və xanımı vətəndaşların problemləri ilə tanış olublar. Bildirilib ki, sakinlərin müraciət etdiyi problemlərlə bağlı məsələlər yaxın zamanda operativ şəkildə həll olunacaq.



## Nazir düşmənin təxribat cəhdlərinin qarşısının alınması barədə tapşırıq verdi

**Genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində cəbhəboyu zonada olan müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti müxtəlif istiqamətlərdə yerləşən ön xətt bölmələrində olublar.**

Müdafiə Nazirliyindən «Trend»ə verilən məlumata görə, nazir bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayıb, Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən mövqelərini müşahidə edib və əldə olunan məlumatlara əsasən düşmənin törədə biləcək təxribat cəhdlərinin qarşısının bütün atəş vasitələrinin tətbiqi ilə dərhal alınması barədə müvafiq tapşırıqlar verib.

## "Vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir" - Metyu Brayza

**Gələn həftə - mayın 29-da Bakı UEFA Avropa Liqasının "Arsenal" və "Çelsi" komandaları arasında keçiriləcək final oyununa ev sahibliyi edəcək. Hesab edirəm ki, bu, möhtəşəmdir. Bu oyun Bakının necə gözəl şəhər, həmçinin yaşamaq üçün möhtəşəm bir məkan olduğunu bütün avropalılara və dünyaya nümayiş etdirmək baxımından çox gözəl bir imkandır. Şəxsi təcrübəmdən bilirəm ki, vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir.**

«Trend»in məlumatına görə, bu fikirləri ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza söyləyib.

"Təəssüf ki, "Arsenal" klubunun erməni əsilli oyunçusu Mxitaryan təhlükəsizlik məsələsini əsas gətirərək Bakıda keçiriləcək bu oyunda iştirak etməmək barədə qərar verib. Aydındır ki, bu, onun şəxsi seçimidir. Məncə, bu oyunda iştirak etməməsi onun futboldan qazanacağı puldan məhrum olmasına səbəb olacaq. Zənnimcə, bu, ağıllı seçim deyil. Onun Bakıda yarış zamanı futbol meydançasında özünün təhlükəsizliyi ilə bağlı narahat olması üçün heç bir səbəb görmürəm. Mən ermənilər tanıyıram ki, Azərbaycana rahat səfər ediblər. Amma bu, hər halda, futbolçunun şəxsi qərarıdır. Ümid edirəm ki, bu, oyunun möhtəşəm keçməsinə, eləcə də xarici qonaqların Bakının gözəlliyindən həzz almalarına mane olmayacaq. Düşünürəm ki, həm bu oyunun, həm də Bakının gözəlliyinin nümayiş etdirilməsinin siyasətlə heç bir əlaqəsi yoxdur", - deyə M.Brayza vurğulayıb.




## Bakıda bu ərazilərdə hava daha çox çirklənməyə məruz qalır - siyahı

**May ayında Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən Bakı və Sumqayıt şəhərlərində atmosfer havasının səyyar monitorinqi keçirilib.**

ONA-nın xəbərinə görə, bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentinin direktoru Umayra Tağıyeva bildirib.

O deyib ki, Nəsimi, Xətai, Nizami, Səbail, Nərimanov, Yasamal və Sabunçuda aparılmış monitorinqlərin nəticələrinə görə çirkləndirici qaz qarışıqları sanitar normadan bir qədər çox olub, bu da həmin ərazilərdə avtomobillərin çoxluğu ilə əlaqədardır.

**Nazirlik rəsmisinin sözlərinə görə, Bakıda tozun miqdarı normadan yuxarıdır:** "Bu, Bakının bütün rayonlarında tikinti işlərinin aparılması ilə bağlıdır. Xətai, Nizami və Sabunçu rayonlarının atmosfer havası digər inzibati rayonlardan fərqli olaraq daha çox çirklənməyə məruz qalır".

U. Tağıyeva qeyd edib ki, müqayisəli təhlillərə əsasən, Sumqayıt şəhərinin atmosfer havasının keyfiyyəti daha əlverişlidir.



## Fuad Abbasov mayın 28-dən öncə ekstradisiya oluna bilər

### Səfirlik jurnalistlə bağlı hərəkətə keçdi

**"Fuad Abbasov mayın 28-dən öncə Azərbaycana ekstradisiya edilə bilər". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında Rusiya Daxili İşlər Nazirliyinin Ximki şəhəri üzrə polis idarəsinin əməkdaşları tərəfindən saxlanılan jurnalist Fuad Abbasovun vəkili Elman Paşayev bildirib. O, dünən istintaq komitəsinə getdiyini dedi: "Mən onları tələsdirirəm. Hazırda dəqiqləşdirmələr gedir. Tələb edirəm ki, Fuad Abbasov orada olduğu müddətdə onu sorğu-sual etsinlər".**

Vəkilin sözlərinə görə, F.Abbasovun ekstradisiyası mayın 28-dən daha tez ola bilər. E.Paşayev artıq müvafiq cərimənin ödənildiyini və bu barədə sənədləri səfirliyə apardığını dedi. Müsahibimizin sözlərinə görə, sənədlər F.Abbasovun olduğu yerə göndəriləcək və jurnalistin ekstradisiyası daha tez baş tuta bilər.

"Jurnalist Fuad Abbasovun Rusiya Daxili İşlər Nazirliyinin Ximki şəhəri üzrə polis idarəsinin əməkdaşları tərəfindən saxlanılması Səfirliyinin nəzarətindədir".

ONA-nın xəbərinə görə, bu barədə səfirlikdən məlumat verilib. Bildirilir ki, səfir Polad Bülbüloğlunun göstərişinə əsasən, mayın 20-də səfirliyin konsulluq şöbəsinin əməkdaşları onunla Moskva vilayətinin Korolyov şəhəri üzrə əcnəbilərin müvəqqəti saxlanma mərkəzində görüşüb: "Böyük ictimai narahatlığa səbəb olan bu hadisə ilə bağlı səfirlik tərəfindən bütün lazımi tədbirlər görülür".

Qeyd edək ki, jurnalist Fuad Abbasov mayın 16-da Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin Ximki şəhəri üzrə polis idarəsinin əməkdaşları tərəfindən saxlanılıb.

❑ **SEVİNC, "Yeni Müsavat"**

## Rusiyada yoxa çıxan azərbaycanlı leytenant qızın meyiti tapıldı

**Bir neçə aydır Rusiyada yoxa çıxan 24 yaşlı qızın meyiti çaydan tapılıb.**

Bu barədə «Trend»ə Rusiyanın Kemerovo vilayətindəki Azərbaycan icmasının sədri Fikrət Qasımov bildirib.

Sədrin sözlərinə görə, leytenant rütbəsində olan gənc qız Rusiyanın Novokuznetsk şəhərində yerli orqanların birində müstəntiq işləyib:

"Uzun zamandır itkin düşən həmvətənimiz, 1995-ci il təvəllüdlü Əliyeva Aysel Nəbi qızının meyiti bu ayın 9-da çaydan tapılıb. Martın 8-dən yoxa çıxan qız artıq federal axtarışa da verilmişdi. Ekspertizanın cavabına görə, Ayselin bədənində heç bir zorakılıq əlaməti aşkar olunmayıb, ilkin versiyaya əsasən, gənc qız intihar etmək üçün özünü çaya atıb".



## Ərdoğan Prezident İlham Əliyevi təbrik etdi

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.**

**Təbrikdə deyilir:** "Hörmətli cənab Prezident. Əziz Qardaşım. Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Dost və qardaş Azərbaycanın müstəqilliyini bərpa etməsindən bu günə qədər keçən müddət ərzində bütün sahələrdə qazandığı böyük uğurlar Türkiyə üçün də qürur mənbəyidir. Uzaqgörən liderliyiniz sayəsində Azərbaycanın bu nailiyyətlərinin artaraq davam edəcəyinə inamımız qətidir.

"Bir millət, iki dövlət" şüarı ilə genişlənən strateji münasibətlərimizin daha da güclənməsi istiqamətində qətiyyətli olduğumuzu bir daha vurğulamaq istəyirəm. Qarşıdakı dövrdə də sıx əməkdaşlığımızın regionumuzda və regionumuzdan kənarda sülh, rifah və sabitliyə mühüm töhfə verəcəyinə səmimi qəlbdən inanıram.

Fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifah diləklərimi bir daha ifadə edirəm".

## Metroda qatarların tuneldə qalması hallarına son qoyulacaq

**"Bakı Metropoliteni" QSC ümumi gücü 39 MVT olan 17 ədəd generator alıb.**

"Report" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında qurumun baş mühəndisi Əlixan Osmanov deyib.

Onun sözlərinə görə, hazırda generatorların sazlanması və quraşdırılması həyata keçirilir.

"Məsələn, metroya xidmət göstərən "Azərişıq" ASC-nin 215 saylı yarımstansiyasında 2 ədəd dizel generatoru quraşdırılıb. Bunların hər biri 500 litr yanacaq tutur. Enerjinin tam kəsilməsi halında generatorlar işə düşəcək və işıqlandırma, eskalatorların hərəkəti, su və ventilyasiya sistemi üçün enerjini təmin edəcək. Həmçinin bu generatorlarla qatarların minimal hərəkətini təmin etmək mümkündür. Yeni qatarlar daha tuneldə qalmayacaq".

**"Ümumiyyətlə, nə Fəvvarələr meydanı, nə İstiqlal abidəsinin ətrafı, bütövlükdə şəhərin mərkəzinin bağlanmasından, vətəndaşların sərbəst hərəkətinin məhdudlaşdırılmasından söhbət gedə bilməz. Biz bir daha bildiririk ki, bu haqda heç bir qərar yoxdur. Axı necə ola bilər ki, Bakı sakini öz ailəsi ilə gəzməyə çıxır, sən onu "Torqovı"ya girməyə qoymayasan? Sadəcə, bu məlumatlar sosial şəbəkələrin təxribatıdır, inanmayın".**

# Meriyadan yeni "Torqovı" açıqlamaları

## **BŞİH mətbuat katibi:** "Necə ola bilər ki, insan ailəsi ilə gəzməyə çıxır, onu buraxmayasan?"
## **Aqil Abbas:** "Final oyunu ərəfəsində Azərbaycana ləkə atmaq istəyən qüvvələr var, şou düzəldirlər"

Bu sözləri "Yeni Müsavat"a Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri İsrafil Kərimov mayın 25-dən 31-dək Bakının "Torqovı" adlanan mərkəzi meydanının, yəni Nizami küçəsinin Avroliqa finalı ilə əlaqədar vətəndaşların üzünə bağlanacağı barədə yayılan məlumatlara münasibət bildirərkən dedi.

**BŞİH sözçüsü qeyd etdi ki, mayın 28-i və 29-u günlərində bayram əhval-ruhiyyəsi olacaq:** "Həm Respublika Günü, həm idman yarışı ilə əlaqədar şəhərdə fərqli bayram ovqatı yaşanacaq. Hətta şəhərə gələcək ingilis qonaqlara onların nağıl qəhrəmanları Şerlok Holms və s. barədə maraqlı sərgilər nümayiş etdiriləcək, parklarda, meydanlarda bayram tədbirləri keçiriləcək. Biz respublikamızın qonaqpərvərliyini, ölkəmizdəki əmin-amanlığını turistlərə göstərməliyik. Qoy gəlsinlər, ölkəmizi görsünlər. Bakıda ilk dəfə yarışlar keçirilmir, hər zaman mötəbər tədbirlər paytaxtımızda yüksək səviyyədə təşkil olunub.

Eyni zamanda kim özünü Azərbaycan vətəndaşı hesab edirsə, o da gələn xaricilərə qonaqpərvərliyimizi nümayiş etdirməlidir. Ona görə də heç bir qadağa, şəhərin mərkəzinin bağlanması söhbəti ola bilməz".


İsrafil Kərimov



**Deputat Aqil Abbas da bildirdi ki, bu, insanları əsəbiləşdirmək üçün ortaya atılıb:** "Daxili İşlər Nazirliyi təkzib edib ki, belə söhbət yoxdur. Bunu haradan çıxarıblar? Necə mərkəzə getmək olmaz? Hasar çəkəcəklər, qapı qoyacaqlar, yoxsa pasportlarını yoxlayıb buraxacaqlar? Bir hoqqa atırlar ortaya, şou düzəldirlər".

**Deputatın sözlərinə görə, final oyunu ərəfəsində Azərbaycana ləkə atmaq istəyən qüvvələr var:** "Mxitaryana kim qadağa qoymuşdu? Özündən bir şou düzəltdi. Məqsəd Azərbaycana təzyiq etməkdir. Bu, ingilis həyasızlığıdır. Azərbaycan tolerant ölkə kimi tanınır. Bundan əvvəl də İslam oyunları, Avropa Oyunları, "Eurovision" ərəfəsində ölkəmizə qarşı qarayaxma kampaniyaları aparılıb".

**Qeyd edək ki, Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Ehsan Zahidov qeyd edib ki, bu barədə hər hansı açıqlama yaymayıblar:** "Biz belə bir məzmunda açıqlama yaymamışıq, bunu bizdən niyə soruşursunuz ki? Nə məhdudiyyət? Belə məlumat yaymamışıq".

**Jurnalist Eynulla Fətullayev də müəllif yazısında məsələyə toxunub və qeyd edib ki, hansı özünə hörmət edən hakimiyyət belə addım atar:** "Bu cür boş yalana diqqət yetirməyə dəyərdimi? Ələlxüsus da prezident vəzifəsini tutmağa iddialı olan siyasətçiyə?! Lakin yeni xalq başçısı obrazında İlqar Məmmədov dərhal hakimiyyətin qərarını pisləyir və qəzəblə UEFA-ya hücuma keçir. Sən demə, özünün daha çox futbolu xatırladan REAL adlı marginal təşkilatı ilə İlqar Məmmədov yalan xəbərin yayılmasına bir gün qalmış Birinci respublikanın qurucularının memorialına doğru narazıların yürüşünün təşkili barədə tarixi qərar qəbul edibmiş. Tarixlər belə düşüb ki, oyuna bir gün qalmış Birinci respublikanın elan olunmasının 101 ili tamam olacaq. Və budur, Bakı Realı öz oyununu oynamaq qərarına gəlib. Sanki hakimiyyət bir ovuc marginalın yürüşündən ehtiyat edərək, mərkəzi prospekti bağlamaq qərarı verib".

**E.Fətullayev ardınca yazır:** "İlqar Məmmədov nə edir?! O da Mxitaryan və onun tərəfdarları kimi bütün Bakının və Azərbaycanın bayramını pozmağa, Kiçik Qafqaz ölkəsi üçün bu cür əhəmiyyətli hadisəni korlamağa cəhd edir və öz hakimiyyətini əsassız günahlandırır.

Halbuki hakimiyyət siyasəti idmana qatmırsa da, Avropa Oyunları və digər nüfuzlu beynəlxalq hadisələr ərəfəsində müxalifət ən kiçik imkandan və hətta səhvdən yararlanmağa çalışır ki, təki aranı qarışdırsın və murdarlıq etsin".

Xatırladaq ki, final oyununa tamaşa etmək üçün xarici dövlətlərdən paytaxta gələcək çoxsaylı qonaqların, azarkeşlərin və rəsmi şəxslərin nəqliyyat vasitələrinin sərbəst hərəkətinin təşkil olunması üçün Baş Dövlət Yol Polisi İdarəsi əlaqəli qurumlarla birlikdə zəruri tədbirlər həyata keçirir.

Bu barədə qurumun mətbuat xidmətindən bildirilib. Nəqliyyatın sıxlığının azaldılması, həbelə avtomobillərin və piyadaların şəhər daxilində rahat, fasiləsiz hərəkətinin təşkili məqsədilə respublikanın digər şəhər və rayonlarından paytaxta gəlmək istəyən vətəndaşlarımıza mayın 27-dən 30-dək olan müddətdə ictimai nəqliyyat vasitələrindən, marşrut avtobuslardan istifadə etməyi tövsiyə edirik.

Sumqayıt sakinləri isə avtobuslarla yanaşı, Bakı-Sumqayıt marşrutu üzrə fəaliyyət göstərən sürətli elektrik qatarlarından istifadə edə bilərlər. Şəhərin giriş hissələrində lazımi şəraitlə təchiz olunmuş və mühafizə olunan ödənişsiz duracaqlar fəaliyyət göstərir. Bundan əlavə, final oyunu ilə əlaqədar azarkeşlərin bir çoxunun Gürcüstana səfər edərək oradan Bakıya gəlməsi ehtimalının böyük olduğunu nəzərə alaraq, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə məxsus Dövlət Avtomobil Nəqliyyatı Xidməti (DANX) Tiflisdən Bakıya və əks istiqamətdə gedən müntəzəm marşrut xətləri üzrə avtobusların artırılmasına dair müvafiq daşıyıcılara tapşırıq verib.

Məlumata görə, həmin azarkeşlərə yüksək səviyyədə xidmət göstərilməsi məqsədilə 27-31 may tarixlərində mövcud Bakı-Tiflis-Bakı marşrut xəttinə əlavə avtobuslar buraxılacaq.

27-31 may tarixlərində regionlarımızdan Bakıya gələcək və ölkənin turistik məkanlarına istirahət üçün üz tutacaq azarkeşlərin Quba, Qusar, Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Zaqatala, Qax şəhərlərinə rahat gediş-gəlişi üçün ümumilikdə əlavə olaraq 100 avtobus xəttə buraxılacaq. Mayın 29-da keçiriləcək "Arsenal" - "Çelsi" finalı saat 23:00-da baş tutacaq.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Dağılan birliklər, inhisarçı liderlər və passiv müxalifət...

**Artıq yay mövsümü gəlir və siyasi fəallıq getdikcə azalır. Partiyaların işində aktivlik nəzərə çarpmır, yeni təkliflər, birliklər yoxdur, mitinqlərə icazə verilmədiyi üçün sosial şəbəkədə daha çox görünürlər.**

Həmçinin Azərbaycan Xalq Hərəkatının ikiyə bölünməsi, Qarabağ Komitəsində qopmalar, eləcə də AXH-nin özünün ayrılıqda Qarabağ Komitəsi yaratması bu düşərgədə yenə konfliktlərə, didişmələrə səbəb olub.

Mövcud müxalifət liderlərinin böyük əksəriyyəti 80-ci illərin xalq hərəkatının önündə gedənlərdir. O illərdə bir çağırışla meydanlara yüz minləri toplaya bilirdilər. Hərəkatın o zamankı və indiki liderləri elə o dövrdə anlamalıydılar ki, bu, hər zaman belə olmayacaq. İnsanların mübarizliyinin, dözümünün və inamının limiti var.

Azərbaycanda bütün bu illər ərzində müxalifət Qərbin hətta mənəvi dəstəyini əldə edə bilməyib.

Müxalifət isə prosesləri dəyişmək iqtidarında deyil. Qərbin Azərbaycan müxalifətinə bu dərəcədə saygısız yanaşmasının çoxsaylı səbəbləri mövcuddur.


Əli Əliyev


Sərdar Cəlaloğlu

**Tural Abbaslı:** "Hakimiyyət prosesləri nəzarətində saxlayır və bu da müxalifətin passivləşməsinə gətirib çıxarır"
**Əli Əliyev:** "Müxalifət düşərgəsi sosial şəbəkələrə köçürülüb"
**Sərdar Cəlaloğlu:** "Nəticə yoxdursa, o demək deyil ki, fəaliyyətimizi dayandırmalıyıq"

Son 20 ildə müxalifət ardıcıl mübarizə aparmayıb. Seçki öncəsi yaranan birliklər seçkidən dərhal sonra dağılıb və müxalifət bir-birinə qarşı nifrət püskürüb. Burada incə bir məqam mövcuddur. Azərbaycan müxalifəti yenilənmir və sanki inhisara götürülüb.

Nə Şərqi Avropada, nə də ki, postsovet məkanında 20 il ərzində müxalifətdə olan siyasi qüvvə qalmayıb. Nəsil dəyişikliyi baş verib və siyasi müstəvini tamamilə yeni simalar doldurublar.

Milli-azadlıq və demokratiya savaşının iştirakçısı olan siyasi qüvvələr artıq Şərqi Avropada və keçmiş SSRİ məkanında siyasətlə məşğul olmurlar. Onlar öz missiyalarını həyata keçirərək, yerlərini yeni müxalifətçilər nəslinə verərək, özləri yoxa çıxıblar.

"Müxalifətin passivləşməsi fikirləri ilə razı deyiləm. Ona yaradılan şərait və məhdud resurslarla fəaliyyət göstərməyə, mübarizə aparmağa çalışır".

Bu fikri AĞ Partiyanın başqanı Tural Abbaslı "Yeni Müsavat"a bildirdi. Partiya sədri müxalifətin fəaliyyətinin passiv fazaya keçməsini təkcə bu düşərgə ilə əlaqələndirmir.

Onun sözlərinə görə, hakimiyyət kütləvi aksiyalar keçirilməsinə icazə vermirsə, deməli, passiv adlanan müxalifətdən çəkinir.

**T.Abbaslının fikrincə, müxalifətdaxili didişmələrin olması da normaldır:** "Təbii ki, dünya siyasətində necədirsə, bizdə də bu hallar qaçılmazdır. Yəni partiyalar arasında replikalar, atmacalar olur, qarşılıqlı ittihamlar səslənir, birlik təşəbbüsləri olur, sonra birliklər bölünür. Çünki siyasətdə hər bir təşkilatın öz maraqları var. Digər tərəfdən, hakimiyyət prosesləri nəzarətində saxlayır və bu da müxalifətin aktivləşməsinə, yaxud passivləşməsinə gətirib çıxarır".

**T.Abbaslı siyasətdəki durğunluğu yay mövsümü ilə də əlaqələndirir. O hesab edir ki, bu, dünyanın hər yerində qəbul edilmiş bir tendensiyadır:** "Əgər fors-major hadisə baş vermirsə, fövqəladə, spontan proseslər yaşanmırsa, yayda siyasət bir növ istirahətə getmiş olur. Çünki insanlar şəhərlərdən gedirlər, tələbələr, aktiv adamlar hava şəraitinə görə bir az fəaliyyətə ara verirlər, siyasətlə maraqlananlar az olur. Bu baxımdan istər-istəməz müxalifətin də fəaliyyəti səngiyir. Ancaq mən qarşıda daha maraqlı hadisələrin olacağını gözləyirəm. Xüsusən də seçki gözləntiləri ehtimalı var deyə qaynar bir yay yaşayacağımız istisna deyil".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevin sözlərinə görə, Azərbaycanda müxalifətin passivliyi siyasi azadlıqlarla bağlı vəziyyətə düz mütənasibdir. O hesab edir ki, ölkədə müxalifətin, vətəndaşların konstitusion əsaslarla fəaliyyət göstərmək imkanları məhdudlaşıb:** "Bu halda müxalifət necə fəaliyyət göstərsin? Bu gün müxalifət düşərgəsi sosial şəbəkələrə köçürülüb, mitinqlərə icazə verilmir, müxalif siyasətçilər efirə buraxılmır, aktivlik göstərənlərə təzyiq olunur, ifadə formaları məhdudlaşıb".

VİP sədri düşünür ki, yalnız əhalinin siyasi aktivliyinin artması və yaxud kənar güclərin təsiri ilə hakimiyyət müxalifətin aktivləşməsi üçün siyasi azadlıqları verməyə məcbur ola bilər.

**Azərbaycan Demokrat Partiyası (ADP) sədri Sərdar Cəlaloğlunun fikrincə, siyasi aktivlik hər zaman olmur:** "Necə ki, idmanda enerji boşalır, istirahət verilir, sonra yenidən özünüqurma, güclənmə başlanır. Bu gün hər bir antidemokratik ölkədə müxalifətin vəziyyəti necədirsə, Azərbaycanda da müxalifətin durumu elədir. Müxalifətin indi nəticəsi yoxdursa, o demək deyil ki, fəaliyyətimizi dayandırmalıyıq".

ADP lideri bu il növbədənkənar parlament seçkiləri olacağını gözlədiyini və partiyanın buna hazırlaşdığını bildirdi.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 111 (7281) 23 may 2019

# Fazil Məmmədovun 5 kadrı istintaqa cəlb olundu - şok maliyyə maxinasiyaları

**Vergilər Nazirliyi və Baş Prokurorluq birgə məlumat yayıb. Birgə məlumatda deyilir ki, Vergilər Nazirliyindən bir sıra ərazi vergilər idarələrinin 2015-2018-ci illəri əhatə edən dövr üzrə fəaliyyətlərinin yoxlanılması zamanı aşkar edilmiş qanun pozuntularına dair Baş Prokurorluğa daxil olmuş materiallar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

## Vergilər Nazirliyində antikorrupsiya əməliyyatı - sabiq nazirin dövründə başlamış vergi yeyintiləri üzə çıxdı; Vergilər Nazirliyi və Baş Prokurorluq birgə məlumat yaydı...



Bu haqda Baş Prokurorluqdan daxil olan məlumatda deyilir: "Aparılmış araşdırmalarla 2 saylı Ərazi Vergilər Departamentinin İqtisadi təhlil və büdcə proqnozunun icrasına nəzarət şöbəsinin böyük dövlət vergi müfəttişi Mahir Əbdürrəhimovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək Xızı və Siyəzən rayonları üzrə maliyyə şöbələrindən daxil olmuş vergi və dövlət rüsumlarından tam və ya qismən olmaqla, ümumilikdə 511 min manat azaldaraq, həmin məbləğləri ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə qeyd etməklə sonunculardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb".

Qeyd olunub ki, bundan başqa, Ağdam rayon Vergilər Şöbəsinin direktoru Valeh Qasımovun eyni qaydada rayon maliyyə idarəsindən daxil olmuş ödəniş sənədlərini (qəbzləri) saxtalaşdıraraq faktiki olaraq ödəniş olmadığı halda ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə ümumilikdə 412 min manat vəsait qeyd etməklə onlardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr olduğundan material üzrə Cinayət Məcəlləsinin 179.3.2 və 308.2-ci maddələri ilə cinayət işi başlanıb.

Aparılmış araşdırmalarla həmçinin 5 saylı Ərazi Vergilər İdarəsinin operativ vergi nəzarət şöbəsinin dövlət vergi müfəttişi Eldəniz Əzizov və həmin idarənin Səyyar vergi yoxlamaları şöbəsinin böyük dövlət vergi müfəttişi Elnur Mənsimovun eyni qaydada müvafiq maliyyə idarələrindən daxil olmuş ödəniş sənədlərinin (qəbzlərin) işlənilməsi zamanı 38 min manat vəsaiti faktiki ödəniş təyinatından yayındırmaqla ayrı-ayrı vergi ödəyicilərindən nağd şəkildə alınmış və büdcəyə ödənilməmiş vəsait əvəzinə onların şəxsi hesab vərəqələrinə vergi ödənişi kimi qeydiyyatını aparmaqla vergi ödəyicilərindən vergi ödənişi kimi nağd şəkildə alınmış həmin məbləği mənimsəməsinə əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 179.2.3, 179.2.4 və 308.1-ci maddələri ilə cinayət işi başlanıb.

Göstərilənlərlə yanaşı, 13 saylı Ərazi Vergilər İdarəsinin Kiçik sahibkarlıqla iş şöbəsinin vergi öhdəliklərinin icrasına nəzarət bölməsinin baş dövlət vergi müfəttişi Ziya Paşayevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 2017-2018-ci illər ərzində Qax Rayon Maliyyə İdarəsindən təhvil aldığı vergi və rüsumlarla bağlı 47 min manat dəyərində ödəniş qəbzlərini skan edərək ora əvvəldən tanıdığı bəzi vergi ödəyicilərinin sadələşdirilmiş vergi kodu, ödəyicinin adı, VÖEN və vergi məbləği haqda yenidən qeydiyyat apararaq rəsmi sənədi saxtalaşdırmasına əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 308.2 və 313-cü maddələri ilə cinayət işi başlanıb.

Vergilər Nazirliyi üzrə əmrlərlə xidməti fəaliyyətlərinin icrası zamanı yol verdikləri qanunazidd əməllərə görə müvafiq ərazi vergilər idarələrinin 4 əməkdaşının vergi orqanlarında xidmətlərinə xitam verilmiş, 4 əməkdaş isə müvəqqəti olaraq tutduqları vəzifədən kənar ediliblər.

Hazırda cinayət işləri üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Vergi sahəsində yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkar edilmiş korrupsiya hüquqpozmalarına qarşı bundan sonra da Vergilər Nazirliyi ilə Baş Prokurorluq tərəfindən birgə ciddi tədbirlərin görülməsi davam etdiriləcək.

***

Sabiq vergilər naziri Fazil Məmmədovun çevrəsində həbs hazırlıqlarının aparılması haqda məlumatlar ötən ilin əvvəlindən vardı. Həmin məlumatlarda bildirilirdi ki, vaxtilə Fazil Məmmədova yaxınlığı ilə seçilən və yerlərdə vətəndaşlara qan udduran kadrları barəsində dosye toplanır. Hətta bir neçə kadrına qarşı müxtəlif dövlət orqanlarının iddiaçı qismində məhkəmələrə şikayətlər göndərməsi xəbəri də yayılmışdı. Fazil Məmmədovun ətrafında olan, illərlə ona güvənib hər cür qanunsuzluqlara yol verənlərin cəzalandırılacaqları gözlənilən idi. Onların bir çoxunun həbs ediləcəyi bildirilirdi.

Məlumdur ki, Fazil Məmmədovun ətrafında olan bir neçə icra başçısı da var ki, onlar vaxtilə Vergilər Nazirliyində çalışıblar. Bu gün isə icra başçısı kimi yerlərdə böyük narazılıq ocaqları yaradıblar və hələ ki vəzifələrində qalırlar. Gələn məlumatlar onu deməyə əsas verir ki, 2019-ci il Fazil Məmmədov və onun ətrafında olanlar üçün çox çətin günlərlə yadda qalacaq. "Maliyyə xəyanətində" suçlandırılan Fazil Məmmədovun ölkə daxilindəki aşkar və gizli olan bütün əmlakları siyahılaşdırılıb. Fazil Məmmədov özünün müflis olması haqda məlumatlar yaymasından sonra onun kadrları haqda araşdırmaların başlanması xəbərini təsadüfi hesab etmək olmaz. Onun sahibkarlardan taladığı və xaricə çıxara bildiyi milyardların geri qaytarılması prosesi ləng də olsa gedir. Görünən budur ki, Fazil Məmmədovun ətrafında körükləmə işləri başlayıb.

**Xatırladaq ki, F.Məmmədov vəzifədə olarkən, 2016-cı ilin yanvarında prezident keçirdiyi müşavirədə onun fəaliyyətini sərt tənqid etmişdi.** "Sahibkarları boğurlar, soyurlar, incidirlər. Bu, dözülməz haldır. Bax, 30 minə yaxın iş yeri bağlanıb, 67 min daimi iş yeri yaradılıb, 30 mini bağlanıb. Mənə məlumat verilsin ki, o iş yerləri hansı səbəblər üzündən bağlanıb. O müəssisələrin rəhbərlərini dəvət etmək, soruşmaq lazımdır. Buna son qoyulmalıdır" - deyə prezident bildirmişdi.

Sonrakı müşavirələrdə də F.Məmmədovun yarıtmaz fəaliyyəti bir daha qabardılmışdı. Məlum olmuşdu ki, bir çox sahibkarlardan 2016-cı ildə 2017-2018-ci illərdə ödəyəcəkləri vergilər əvvəlcədən alınıb. Fazil Məmmədov vəzifəsini itirəndən sonra onun cəzalandırılacağı da istisna olunmurdu. Gerçəkləşdirilən son əməliyyat-istintaq tədbirlərinin Fazil Məmmədova qədər uzana biləcəyi ehtimalı da var.

❑ **E.HÜSEYNOV,**

# Demokratik islahatlara qaragüruh əngəli - siyasi radikalizm ölkəyə nə vəd edir?

## Partiya sədrləri bu haqda fərqli düşünürlər



Fərəc Quliyev



Tural Abbaslı

**Son aylar Azərbaycanda bir sıra sahələrdə islahatlar aparılır. Sosial-iqtisadi, məhkəmə-hüquq sahələrində aparılan islahatlarla yanaşı, siyasi istiqamətlərdə də islahatlar gedir.**

Hakimiyyət çalışır ki, ölkədə siyasi münasibətləri normallaşdırsın. Bu ilin mart ayında prezidentin imzaladığı əfv sərəncamı ilə xeyli sayda siyasi dustaq azadlığa çıxdı. Hətta hakimiyyətə qarşı radikal mövqedə dayanan siyasi liderlərin ailə üzvləri belə əfvə düşdü. Sanki bu, iqtidarın bir jesti, mesajı idi. Buna rəğmən ölkədə siyasi təzyiq aşağı düşmür, qarşılıqlı nifrət aşılayan təbliğat ara vermir.

Maraqlıdır ki, bu gün hakimiyyətə qarşı müxalifətdə dayanan bir sekta var ki, o, özünü barışmaz müxalifət elan edərək, var qüvvəsi ilə iqtidarın üstünə gəlir. Sanki siyasi münasibətlərdə qarşılıqlı güzəştlərin, barışın olmasında maraqlı deyillər. Bəzi iddialara görə, özünü barışmaz müxalifət kimi təqdim edən bu qüvvələr hakimiyyəti təxribata çəkməyə, onu siyasi islahatlardan yayındırmağa cəhd göstərir. Sosial mediada dayanmadan hakimiyyəti ağır və sərt dillə tənqid, əksər vaxtlar isə təhqir edirlər. Ekspertlərin fikrincə, bununla da hakimiyyəti yumşaq idarəçilik addımlarından çəkindirirlər. Bəs bu iddialar nə dərəcədə düzdür?

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyevə görə, yumşaq idarəçilik termini yoxdur:** "Bunu kimsə kəşf edib ortalığa qoyursa, bu, anormal bir məsələdir. Digər tərəfdən, ölkədə demokratik dəyərlərin üstün tutulduğu göz önündədir. İstənilən partiyanın seçki yolu ilə hakimiyyətə gəlmək imkanları ola bilər. Ölkədə milli demokratik düşərgə və qeyri-milli demokratik düşərgələr mövcuddur. İkincilərin nəinki parlamentdə, ümumiyyətlə, cəmiyyət daxilində fəaliyyət göstərmələri düzgün deyil. Yumşaq idarəçilik dedikdə ölkədə qanunlar var. Kimsə qanundankənar fəaliyyət aparırsa, bununla bağlı tədbirlərin görülməsi normaldır. Statusundan istifadə edib qanunları pozan istənilən şəxs haqqında sərt qərarlar verilməlidir. Hamı qanun qarşısında bərabərdir. Bəzi qüvvələr sosial şəbəkələrdə "qəhrəmanlıq" etməklə məşğuldurlar. Hərəsi ətrafına 10-15 nəfər yığır, bu sayda da saxta profillər yaradıb söyüş söyməklə məşğul olur. Belə müxalifətçilik olmaz. Bu cür fəaliyyətin qarşısı alınmalıdır. Ölkənin təhlükəsizliyi baxımından da bu, çox önəmlidir. Bu adamlar hakimiyyətə qarşı siyasi mübarizə apardıqlarını elan edib, əslində dövlətə qarşı çıxırlar. Bunu edənlər qanunla ən sərt formada cəzalanmalıdırlar".

**AĞ Partiya başqanı Tural Abbaslı isə düşünür ki, radikallıq etmək üçün müxalifətin resursları və imkanları çox məhduddur:** "Adətən müxalifətin hərəkət və davranışları birbaşa iqtidarın münasibət və davranışlarından asılı olur. Əgər iqtidar müxalifəti hər məqamda sıxışdırır, qərargahsız qoyur, üzvlərini həbs edir, efirə buraxmamaqla yanaşı elə həmin efirdən birtərəfli qaydada tənqid, bəzən də təhqir edir, konstitusion hüquqlarına belə məhdudiyyətlər tətbiq edirsə, o zaman bu kəsimin radikallaşması da təbii olur. Əgər iqtidar siyasi münasibətlərin yumşalmasını, normal siyasi rəqabət mühitinin yaranmasını istəyirsə, ilk növbədə, özü bu istiqamətdə real addımlar atmalıdır. Təəssüf ki, bizlər bu istiqamətdə hər hansı bir inkişaf görmürük. Siyasi ritorikanı müxalifət deyil, iqtidar müəyyənləşdirir. Odur ki, məsuliyyət həmişəki kimi əlində inzibati resursu və gücü cəmləmiş hakimiyyətin üzərinə düşür. İqtidar səmimi şəkildə münasibətlərin sivilləşməsini istəyirsə, ortaya siyasi iradə qoymalıdır. Əks təqdirdə, "qazancı" gərginlikdən çıxan hər iki tərəfdəki fürsətçilər siyasi münasibətlərin bu formada qalması üçün hər şey edəcəklər. Bu da nəticədə dövləti və dövlətçiliyi zəiflədəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 111 (7281) 23 may 2019

**Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT Parlament Assambleyasındakı (ATƏT PA) nümayəndə heyətinin rəhbəri Bahar Muradova "Yeni Müsavat"ın suallarını cavablandırıb. Xanım vitse-spiker Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı, nüfuzlu beynəlxalq qurumla yenilənmiş strateji sazişin imzalanması ərəfəsində bir sıra dairələrdən ölkəmizə qarşı yönəlmiş təzyiqlərlə əlaqədar qəzetimizə danışıb. Müsahibəni təqdim edirik:**



# "Biz heç zaman Avropa İttifaqına üzv olacağımızı bəyan etməmişik"

## Bahar Muradova: "İstənilən beynəlxalq təşkilatla, yaxud başqa bir ölkə ilə münasibətimiz üçüncü ölkəyə, o cümlədən Rusiyaya və onun maraqlarına qarşı yönəlməyib"

*- Bahar xanım, Siz parlament rəhbərliyində təmsil olunmaqla yanaşı, Azərbaycanı beynəlxalq təşkilatlarda təmsil edən nümayəndə heyətinin rəhbərisiniz və ab-havadan kifayət qədər məlumatlı insansınız. Bu ərəfədə Böyük Britaniyadan anti-Azərbaycan mövqeli bəyanatın səslənməsinin səbəbi nədir? Azərbaycan neftində böyük pay sahibi olan ölkə ilə münasibətlərdə nə baş verdi ki, futbol bəhanəsi ilə təzyiqlərə başladılar?*

- Düşünmürəm ki, bu məsələ hansısa bir konkret hala bağlı olan məsələdir. Özünüz də qeyd etdiyiniz kimi, bu bir bəhanədir. Və eyni zamanda zənn etmirəm ki, bunun arxasında Böyük Britaniya hökuməti dayanır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra keçən bu müddət ərzində çox böyük inkişaf yolu keçib, bu, faktdır. Bunu təkcə biz demirik, bütün dünya görür, izləyir. Bəziləri bu inkişafa dəstək mövqeyindədir, bəziləri də bunu yaxşı halda görməzliyə vurur, digər halda isə ölkəmizə qarşı qara piar kampaniyası aparmaqla müxtəlif xarakterli plan və layihələrin təşkilatçısı, yaxud da tərkib hissəsi kimi çıxış edirlər. Bununla artıq bizi təəccübləndirmək mümkün deyil. Çünki fəaliyyətimiz genişləndikcə müxtəlif istiqamətlərdən bizə hansısa hücumların və qarayaxmaların olacağını da təxmin edirik. Bu dəfə də yanılmadıq. Məncə, o qədər çox proqramlarımız var ki, bir sıra dairələr də işsiz qalmırlar, "davamlı və dayanıqlı" işlə təmin olunublar. Bəziləri tapşırıq verir, digərləri də icra edir. Çox təəssüf ki, onların arasında, yumşaq şəkildə desək, Azərbaycana dost olmayan dairələrin təmsilçiləri ilə yanaşı, öz həmvətənlərimiz də vardır. Hesab edirəm ki, bu hallar ümumilikdə Azərbaycanın əldə etdiyi nailiyyətləri gözdən salmaq, bunun üçünsə daxili siyasi prosesləri körükləmək, ictimai-siyasi sabitliyi pozmaq məqsədilə edilir. Çünki öz dövləti və milli maraqlarını bütün hallarda qorumaqla daha çox diqqətləri öz üzərinə çəkməyə nail olan Azərbaycan bu geostrateji bölgədə bəzi beynəlxalq güclərin yolunda getdikcə böyüyən bir maneəyə çevrilir.

Artıq müxtəlif ölkələrin nümayəndələrindən ibarət formalaşmış qruplar halında fəaliyyət göstərən bir antiazərbaycançı şəbəkənin mövcudluğunu heç kəs inkar etmir.

Və onların da ən müxtəlif maraqlarına belə bəhanələr çox yaxşı yarayır.

Eyni zamanda vurğulamaq istəyirəm ki, bundan əvvəlki hallarda olduğu kimi bu dəfə də belə cəhdlər onu göstərənlərin gözlədiyi nəticələri verməyəcək.

Azərbaycan dövləti və hər zaman onun müdafiəsində dayanan cəmiyyətimizdə artıq belə hallara qarşı güclü müqavimət hissi formalaşıb. Necə deyərlər, daxilində kin-küdurət gəzdirən varlıqların sayıqlamalarına əhəmiyyət verməyə dəyməz. Azərbaycanın inkişaf karvanı öz yolundadır. Və Bakı şəhəri futbol həyəcanını və sevincini yaşamaq üçün ölkəmizə səfər edəcək oyunçu və tamaşaçıları qarşılamağa hazırdır.



**"Müddətlərin uzanmasına baxmayaraq, Azərbaycan tərəfi danışıqları uğurlu sonluğa qədər davam etdirməkdə israrlı olacaq"**

*- Amma çox həssas bir dövrə təsadüf etdi bu kampaniya. Azərbaycan Avropa Birliyinə doğru addım atdığı bir məqamda Avropanın aparıcı ölkələrindən biri Azərbaycanın üzərinə gəldi...*

- Elə bizi də daha çox düşünməyə və doğru nəticə çıxarmağa vadar edən səbəb olan məhz budur. Görürsünüz ki, cənab prezident də bu proseslərin iştirakçısı kimi belə hallarda öz soyuqqanlı və qətiyyətli mövqeyini qoruyub saxlayaraq, cəmiyyətimizi də bu kimi təxribatçı əməllərə uymamağa sövq etməklə daha tədbirli və daha müdrik olduğunu sübut etməkdədir.

*- Çox maraqlıdır, Avropa Azərbaycanın "sinəsindən" geri itələdiyi bir məqamda Ermənistanı irəli çəkmək, qazanmaq uğrunda mübarizə aparır. Razılaşırsınızmı?*

- Çünki Ermənistan alətdir və hər zaman başqalarının maraqlarında özünün mənafeyini güdərək oynamağa çalışır. Azərbaycan isə heç vaxt bu rolu özünə yaxın qoymaz və bizi buna cəlb eləmək istəyənlərin də qarşısında həmişə çox böyük inamla və mətanətlə dayanır. Ermənistanı qazanmaq cəhdi elə buradan qaynaqlanır. Mən düşünmürəm ki, bu, Ermənistana hörmətdən, onun artan nüfuzuna diqqətdən, yaxud da bu ölkə ilə əməkdaşlığın qarşılıqlı, sağlam əsasda fayda verəcəyinə inamdan irəli gəlir. Bir daha qeyd edirəm, Ermənistan yaxın, uzaq ölkələrin, böyük güclərin, beynəlxalq dairələrin əlində hər zaman alət rolunu oynayan ölkə olub, indi də belədir. Ona görə də Ermənistanı "qazanmaq" bəzilərinin işinə yarayır. Burada başqa səbəblər də var, bəlkə də biz onları deməsək, daha doğrudur. Müəyyən dairələrə mənsubluq da bəlkə rol oynayır. Mən bir tərəfdən də düşünürəm ki, bu cür münasibətlər bizim müqavimət hissimizi daha da gücləndirir. Bu, bizim döyüşmək, öz mövqeyini sübut etmək və ən çətin hədəflərə çatmaq istiqamətindəki inadımızı artırır. Biz nəinki çoxsaylı beynəlxalq layihələri icra edirik, üstəlik, onun müdafiəsini də yüksək səviyyədə təşkil edirik və öz mövqeyimizi sübuta yetiririk. Düşünmürəm ki, bu illər ərazində Ermənistan bəlli rolu üzərinə götürməklə hansısa böyük nailiyyətlərə imza atıb. Bizim xarici işlər naziri erməni jurnalistə çox məntiqli bir sual verməşdi ki, bu illər ərzindəki təcavüzkar siyasəti Ermənistana nə qazandırıb? İndiki halda ərazi işğalını nəzərə almasaq, Azərbaycan bir çox məsələlərdə Ermənistandan qat-qat irəlidədir, qarşısına qoyduğu hədəflərə nail olub və inkişaf edən ölkədir. Həmin beynəlxalq təşkilatlarda, elə haqqında söhbət gedən Avropa İttifaqında birləşən ölkələrin bir çoxu ilə də ikitərəfli strateji əməkdaşlığa malikdir. Avropanın enerji təhlükəsizliyi və iqtisadi inkişafı bir sıra sahələrdə, xüsusilə də hərbi-siyasi sahədə əməkdaşlıq baxımından bərabərhüquqlu tərəfdaş rolunu oynayan bir ölkədir. Ona görə də bizim özümüzü Ermənistanla müqayisə etməyimiz doğru deyil. Biz heç müqayisəyə gəlməyəcək dərəcədə fərqli yerlərdəyik.

*- Azərbaycanın müəllifliyi və ya iştirakı ilə nəhəng layihələr reallaşır və Avropa məkanı ilə iqtisadi əlaqəli dərinləşir. Amma postsovet məkanında yalnız Azərbaycandır ki, hələlik Avropa Birliyi ilə strateji tərəfdaşlıq sazişi imzalamayıb. Mayın 13-14-də imza törəni gözləntisi olsa da, bu, baş vermədi. Nə baş verir?*

- Bilirsiniz, Azərbaycan "Şərq Tərəfdaşlığı"na aid olan digər ölkələrdən fərqli olaraq, danışıqlar başlandığı andan bu prosesdə fərqli formatda iştirak edib. Digər 5 ölkədən fərqli olaraq Avropa İttifaqı ilə ikitərəfli əlaqələrə üstünlük vermişik. Çünki bizim o ölkələrlə müqayisə olunmayacaq dərəcədə geniş imkanlarımız və üstünlüklərimiz var. Biz heç zaman Avropa İttifaqına üzv olacağımızı bəyan etməmişik. Qarşılıqlı faydalı əməkdaşlığa hazır olduğumuzu, bu yolda tələsmədən, mərhələ-mərhələ irəliləmək istəyimizi açıq şəkildə demişik.

Ona görə də mən düşünmürəm ki, belə bir yanaşmamız bizi hansısa şəkildə digərlərindən geri qoyur. Əksinə, bizim bu cür münasibət sərgiləməyimizin çox ciddi, arqumental əsasları var. Biz bu istiqamətdə davam edirik və düşünürük ki, Avropa İttifaqı Azərbaycanın ən böyük tərəfdaşı kimi bu prosesdə bizim qədər maraqlı olmalıdır və maraqlıdır. Odur ki, danışıqlar davam edəcək və özünün uğurlu yekun variantına da çatacaq. Odur ki, bizim üçün o sənəddə qarşılıqlı maraqlarımızın tam uyğunlaşdırılması və necə əksini tapması daha çox əhəmiyyət kəsb edir. Ona görə də biz bu yolu mənafeyimizə uyğun bir şəkildə getmək niyyətindəyik.

*- Yeni sənəd 2019-cu ildə də imzalanmaya bilər?*

- Mən bunu söyləyə bilmərəm. Çünki o sənədin bütün məqamları haqda məlumatlı deyiləm. Amma bəlli siyasi yanaşmaya əsaslanaraq deyə bilirəm ki, bu məsələ ilə bağlı müddətlərin uzanmasına baxmayaraq, Azərbaycan tərəfi danışıqları uğurlu sonluğa qədər davam etdirməkdə israrlı olacaq. Və bütün məqamların ölkəmizin maraqlarına uyğunluğunu təmin etməyə çalışacaq.

*- Hansı məqamlardan söhbət gedir?*

- Hər halda bu, mənim deyəcəyim məsələ deyil. Bu sənədin üzərində işləyən insanlar, müvafiq dövlət orqanlarının nümayəndələri var, lazım bilinsə, onlar bunu açıqlaya bilərlər.

*- Bahar xanım, risklərdən, təhlükələrdən danışılarkən daha çox Rusiya faktoruna istinad olunur. İddialar var ki, Gürcüstan və Ukraynanın Avrointeqrasiya qərarına kəskin reaksiya verən Kreml Azərbaycanı da itirəcəyindən ehtiyatlanır və hər an sürprizlərlə üzləşə bilərik. Bu iddialar nə qədər əsaslıdır? Sazişin imzalanmamasında bu amil nə dərəcədə rol oynadı?*

- Biz bunu açıq şəkildə deməliyik ki, bizim istənilən beynəlxalq təşkilatla, yaxud başqa bir ölkə ilə münasibətlərimiz heç zaman üçüncü ölkəyə, o cümlədən Rusiyaya və onun maraqlarına qarşı yönəlməyib. Biz region ölkəsi, böyük qonşumuz kimi Rusiya ilə çox yüksək səviyyəli münasibətlərə malikik, bu münasibətlər yüksələn xətlə də davam edir. Siz bu şəkildə deyirsiniz, mən də məsələni digər yöndən izah etmək istərdim. Təbii, Avropa Birliyinin Rusiya ilə tamamilə fərqli münasibəti var. Amma bu münasibətlər onlara məxsusdur. Biz də Rusiya ilə olan normal qonşuluq, strateji tərəfdaşlıq münasibətlərinə malikik. Prezidentlərimiz, parlamentlərimiz, regionlarımız arasındakı münasibətlərimiz də yüksək səviyyədədir. Ancaq bu da heç bir halda Avropa İttifaqının, bu təşkilata üzv ölkələrin maraqlarına qarşı yönəlməyib. Hər bir ölkənin haqqıdır ki, qonşuları ilə və yaxud da heç qonşu olmayan hər hansı ölkə ilə ikitərəfli faydalı əsasda münasibətlər qursun. Biz Rusiya ilə məhz bu əsasda münasibətlərə malikik. Avropa İttifaqı ilə də yenə ikitərəfli strateji tərəfdaşlıq münasibətləri qurmaq prosesindəyik. Bunun da nə Rusiya, nə də digər bir ölkəyə qarşı yönəlmədiyini qətiyyətlə vurğulayırıq. Bunun əksini sübut etməyə çalışanların da mövqeyinin yanlış olduğunu qeyd edirik. Faktlar özü-özlüyündə hər şeyi deyir. Bizim bütün münasibətlərimizin əsasında beynəlxalq hüquq, imzaladığımız sazişlər, ikitərəfli müqavilələr və onlarda əksini tapan öhdəliklər dayanır. Rusiya ilə olan münasibət Rusiya ilə olan münasibətdir, Avropa İttifaqı ilə olan münasibət Avropa İttifaqı ilə olan münasibətdir. Avropa İttifaqına daxil olan 10-dək ölkə ilə bizim ikitərəfli strateji tərəfdaşlıq sazişimiz var. Amma baxın, Avropa İttifaqına daxil olan digər ölkələr var ki, Azərbaycana buna uyğun gəlməyən hansısa münasibət sərgiləyir. Bu, o deməkdirmi ki, belə münasibət Avropa İttifaqı ilə münasibətlərə qarşı yönəlib? Onların bunu belə bəyan etmədiyi halda, bizim bunu onların əvəzindən bu şəkildə vurğulamağımız nə dərəcədə doğru olardı? Biz hətta çalışmalıyıq və çalışırıq da ki, hər hansı tərəfdən strateji tərəfdaşlıq münasibətlərinə xələl gətirə biləcək belə məsələlər meydana çıxırsa da, onu da yenə danışıqlar yolu ilə nizamlayaq, yoluna qoyaq. Biz maraqlıyıq ki, həm Avropa İttifaqı ilə bütövlükdə, həm də üzv ölkələrlə ayrılıqda münasibətlərimizi strateji tərəfdaşlıq münasibətlərinə qaldıraq.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 111 (7281) 23 may 2019



# Pompeo Məmmədyarovla Mnatsakanyanı nə vaxt görüşdürəcək?..

**Hüseynbala SƏLİMOV**

**Aydındır ki, son aylarda ABŞ-ın xarici siyasət idarəsinin iş qrafiki ifrat dərəcədə sıxlaşıb; bir tərəfdən Venesuela, o biri tərəfdən də İran...**

Amma əgər amerikalılar Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşünü Vaşinqtonda keçirmək istədiklərini bildiriblərsə, deməli, bunun üçün müvafiq bir vaxt da tapmalıdırlar.

Düşünürdük bunun üçün əlverişli məqam mayın son on günlüyü ola bilər, çünki bu vədələrdə Vaşinqtonda ikinci trans-Xəzər forumu işinə başlayacaq və bu tədbirin gedişində nazirlərin görüşünü də təşkil etmək olar, hərçənd, erməni nazirini ora dəvət etmək üçün elə bir əsas yoxdur.

Amma hələ bu konteksdə heç nə bəlli deyil və hətta məlum deyil ki, ümumiyyətlə, may ayında bu görüş baş tutacaqmı? Üstəlik, siyasi təhlil adamları qarşıdakı görüş haqqında çox pessimist proqnozlar səsləndirir və qeyd edirlər ki, ən azı iki səbəbdən böyük ümidlərə qapılmaq lazım deyil.

Birincisi, müşahidələr göstərir ki, Ermənistan hökuməti, o cümlədən də N.Paşinyanın özü hələ ciddi və substantiv danışıqlara hazır deyil.

Ola bilsin, Paşinyan ayıq-sayıq vaxtlarında ürəyinin dərinliklərində anlayır ki, sülh istiqamətində kardinal dönüşlər etmədən nəinki Qarabağ danışıqlarını, ümumiyyətlə, ölkəsinin regional siyasətini "ölü nöqtə"dən tərpətmək mümkün olmayacaq: yəqin o, başa düşür ki, Dağlıq Qarabağ problemini həll etmədən Ermənistan özünün sosial-iqtisadi problemini də həll edə bilməyəcək.

Amma o, bunları hələki dilə gətirməkdə acizdir, bizim isə ekstrasensorika ilə məşğul olmağa nə həvəsimiz, nə də vaxtımız var.

Əlbəttə, Rusiyanın planları konteksində də müəyyən problemlər var. Paşinyan tez başa düşdü ki, ən azı Qərbin real dəstəyini almadan anti - Rusiya jestləri etmək, Qərbə tərəf aşkar meyllənmək həm risklidir, həm də mənasız.

Üstəlik, o özü də bilmir ki, Kremlin Ermənistanın yeni hakimiyyətilə bağlı niyyəti nədir? Rusiyaya bir neçə dəfə səfər etməsinə və V.Putinlə aralarında çox pozitiv münasibətlərin bərqərar olmasını iddia etməsinə rəğmən N.Paşinyan da bilir ki, Moskva hələ də kartlarını tamamilə açmır və gizlətmir ki, iki yaxın ölkənin münasibətlərində hələ də müəyyən qədər şübhə və tərəddüd üçün yer qalır.

Paşinyan özü bu yaxınlarda bəyan etmişdi ki, Kreml onun kadrlarına şübhə ilə yanaşır və onları "C.Sorosun və ABŞ-ın uşaqları" adlandırır. Di gəl, erməni baş naziri kadrlarını dəyişmək fikrində də deyil, əksinə, onları növbə ilə Vaşinqtona göndərir ki, bəlkə ABŞ administrasiyası ilə körpü yarda bildi. Biz bu sətirləri yazarkən onlardan biri - Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Vaşintonda səfərdə idi.

Rusiya prezidentinə gəldikdə isə, N.Paşinyan elə bu yaxınlarda bəyan etdi ki, ola bilsin, bu il oktyabrın 1-də V.Putin Ermənistana səfər edəcək, indi isə çox hörmətli Vladimir Vladimiroviç erməni həmkarını özünün yüksək diqqətilə xoşbəxt etməyə tələsmir.

Düşünürük ki, aralıq zaman intervallarında Kreml öz istəklərini İrəvana S.Lavrov vasitəsilə ötürür. Bəlli olduğu kimi, nazirlərin son görüşü S.Lavrovun iştirakı ilə keçmişdi və o görüşdən yadımızda qalan bu oldu ki, Rusiyanın baş diplomatı da əsirlər və girovlarla maraqlanır ki, bu da hər halda, optimizm üçün əsas verir ki, bu il nəhayət ki, əsir və girovları dəyişmək mümkün olacaq. Yada salaq ki, belə təkliflə rəsmi Bakı hələ ötən il payızda çıxış etmişdi, amma Paşinyan buna adekvat reaksiyası ilə seçilmədi, halbuki bu mühüm hadisə olar, hətta danışıqlar prosesi üçün bir etimad jestinə və mülayimləşmə anına çevrilərdi.

Hiss olunur ki, Paşinyanın amerikalılara da deyiləsi sözü yoxdur, hansılarla ki, bu adam anlaşma yaratmaq üçün dəridən-qabıqdan çıxır.

Bəlli olduğu kimi, amerikalılar ondan regional siyasətdə konkret addım gözləyir.

Aydın məsələdir ki, amerikalılar elə də sadəlövh və təcrübəsiz deyillər ki, durub Rusiyanın satellitinə dəstək versinlər, baxmayaraq ki, ABŞ-dakı erməni lobbisi onlardan məhz bunu - Ermənistanın yürütdüyü xarici siyasətdən asılı olmayaraq ona kömək və dəstək olmağı tələb edir.

Odur ki, Paşinyan küncə sıxılmış vəziyyətdədir. Güman, o, istəyərdi ki, nazirlərin görüşü mümkün qədər gec baş tutsun. O, hələ Dağlıq Qarabağ hərbi teatrına nəzarəti əlinə almayıbdır və məlumdur ki, təkcə yallı getməklə və rəqs etməklə Qarabağ ermənilərinin "ürəklərini fəth etmək" çətin olacaq.

Üstəlik, rəqibləri də onun üçün manevr imkanı saxlamır; nə qədər gülməli olsa da, bu yaxınlarda onu hakimiyyətə yeni Turan qurmaq üçün gəlməkdə ittiham etmişdilər!..

Amma siyasətçinin məharəti onda bilinir ki, mümkün qədər operativ şəkildə əsas ictimai-siyasi tendensiyaları müəyyən edə və onlara söykənə bilsin. Məlum olduğu kimi, hazırda eks-prezident R.Koçaryan və yaxın tərəfdaşları üzərində məhkəmə proses gedir. Son məlumatlara görə, B.Saakyan onun azadlığa çıxmasına nail olubdur, baxmayaraq ki, prokurorluq məhkəminin bu qərarından şikayət verməyə hazırlaşır. Di gəl, əsas məsələ budur ki, İrəvanda Koçaryanı heç kim müdafiə etmir və o, Qarabağ ermənilərinin ümidinə qalıb. Amma Paşinyan sanki bunları görmür və elə bil həqiqətən də qorxur ki, sabah onu "turançılığa dəstək olmaqda" ittiham edəcəklər. Halbuki məsələnin başqa tərəfi də var: indi Saakyan Koçaryanı həbsdən çıxarmağa çalışırsa, təminat varmı ki, sabah onlar yenidən bir siyasi müstəvidə birləşməyəcəklər?..

# Finala "mıx" olan Mxitaryan...

**Mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək Avropa Liqasının final oyununda "Arsenal"ın erməni oyunçusu Henrix Mxitaryan Bakıya gəlməyəcək.**

## Natiq Muxtarlı: "Mxitaryan yayda "Arsenal"dan göndəriləcək"

**Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva mətbuata açıqlama verib:** "İlk növbədə vurğulamaq istərdim ki, Azərbaycan tərəfindən bu ilin 29 may tarixində UEFA-nın Avropa Liqasının Bakıda keçiriləcək final oyununda iştirak edəcək bütün oyunçuların, o cümlədən "Arsenal" futbol klubunun oyunçusu Mxitaryanın, eləcə də bütün pərəstişkarların təhlükəsizliyinin tam şəkildə təmin olunacağı barədə məlumat verilib. Şəxsən XİN-in mətbuat katibi kimi mən bu xüsusda ünvanlanan suallara cavab olaraq, Azərbaycanın idmanla siyasəti eyniləşdirmədiyini dəfələrlə qeyd etmişəm. Azərbaycan ilk dəfə deyil ki, mötəbər idman yarışlarına ev sahibliyi edir və paytaxtımızda indiyədək keçirilən çoxsaylı idman yarışlarında erməni əsilli idmançılar da iştirak ediblər. Ermənistan XİN-in "Arsenal" futbol klubunun erməni əsilli oyunçusunun Bakıya səfər etməməsi ilə bağlı açıqlaması bu ölkənin daxili siyasi problemləri səbəbindən idmanı siyasət alətinə çevirmək cəhdlərindən xəbər verir. Ermənistan XİN-in belə bir oyunda iştirak etməsi yalnız təəssüf doğurur. Əfsuslar olsun ki, bu addım Ermənistanın Minsk Qrupunun həmsədrlərinin bəyanatlarında qeyd edildiyi kimi xalqların sülhə hazırlanmasına hazır olmadığını aydın şəkildə nümayiş etdirdi. Təəssüf ki, Ermənistan "Arsenal"ın erməni əsilli oyunçusunu öz təxribatçı məqsədləri üçün istifadə edir. UEFA-nın Avropa Liqasının final oyununun Bakıda yüksək səviyyədə təşkili, ölkəmizə səfər edən əcnəbilərin (istər futbol oyunçuları, istərsə də pərəstişkarlar olsun) Azərbaycandakı real vəziyyətlə yerindəcə tanış olmaları Ermənistan XİN-in əsassız iddialarının ən gözəl cavabı olacaq".

Qeyd edək ki, indiyə qədər müxtəlif idman növləri üzrə ermənilər Bakıya gələrək, yarışlarda iştirak ediblər. Misal olaraq, ölkəmizdə keçirilən Avropa Oyunlarını göstərə bilərik.



Görünən odur ki, Ermənistan başda olmaqla, Qərbdəki anti-Azərbaycan dairələri Mxitaryanı öz oyunlarına alət edərək, ölkəmizə qarşı bundan istifadə etməyə çalışırlar.

**Politoloq Əhəd Məmmədli bildirdi ki, erməni futbolçu ingilis klubu üçün önəmli deyil:** "Mxitaryan "Arsenal"ın əsas heyətinin oyunçusu deyil. Əgər bu erməni gədəsi London klubunun əsas heyətinin futbolçusu, komandası üçün əvəzolunmaz olsaydı, onu ingilislər hökmən gətirəcəkdi. Mxitaryanı futbolçu kimi deyil, siyasi alət kimi Azərbaycana qarşı istifadə edirlər. Bunu edənlər Britaniya mediası, erməni lobbisidir. BP neft kontraktlarını bağlayanda Azərbaycandakı korrupsiya heç yadına düşmürdü, indi nə oldu bəs? Təbii məsələ korrupsiya deyil, məsələ Azərbaycandan yenə nəsə qoparmaq fürsətidir. Avropalılar ən yaxşı bacardığı işlə məşğuldurlar. Ermənilər isə onların əlində həmişə maşa olublar. Azərbaycanda dəfələrlə erməni idmançıları iştirak edib, medal qazanıb və heç bir problem yaşamayıblar. Bu bir daha onu göstərdi ki, Azərbaycana qarşı hücum məqsədli təşkil olunub. Bütün bunlara rəğmən Azərbaycanın yüksək səviyyədə Avroliqanın finalını keçirəcəyinə heç bir şübhəm yoxdur. Bakıdakı finaldan maliyyə baxımından UEFA Azərbaycandan daha çox qazanclı çıxacaq. Ona görə Azərbaycana heç kəs minnət qoymasın. Kiyev və Tiflis Bakıdan daha təhlükəsiz şəhərlərdir ki? Təbii ki, xeyr. Bəs necə olar ki, müharibə getdiyi Ukrayna və Azərbaycandan daha qeyri-sabit Gürcüstana qarşı bu cür qara piar kampaniyaları keçirilmir, lakin bizim ölkəyə qarşı keçirilir? Bütün bunlar bir daha onu göstərdi ki, Azərbaycan bu cür anti-təbliğat kampaniyalarına həmişə hazır olmalı və dərhal cavab verməlidir. Bunun olması üçündə Avropadakı səfirliklərimiz və lobbi təşkilatlarımız birlikdə səmərəli və operativ işləməyə bacarmalıdırlar. Azərbaycanın final təşkilatçılığını yüksək səviyyədə təbliğ etməlidirlər. Müasir dünyada əsas işin görülməsi deyil, gördüyün işin necə təqdim edilməsidir".

**"Kaspi" qəzetinin redaktoru Natiq Muxtarlı Mxitaryanın təkbaşına qərar vermədiyini düşünür:** "Heç şübhə olmasın ki, Mxitaryan Bakıya gəlməməklə bağlı qərarı Ermənistan hakimiyyəti və erməni lobbisi ilə məsləhətləşdikdən sonra verdi. "Arsenal" erməninin "qorxuram" deməsindən sonra onu Bakıya gəlməyə məcbur edə bilməzdi. Bütün peşəkar klublarda bu kimi məsələlərdə futbolçunun istəyi nəzərə alınır. Azərbaycan hakimiyyətinin təhlükəsizliklə bağlı təminatı "Arsenal" rəhbərliyinə çatdırılmışdı. Onlar yaxşı bilirdilər ki, Mxitaryana Bakıda güldən ağır söz deyən olmayacaq. Amma erməni futbolçu peşəkarlığı yox, siyasi şarlatanlığı üstün tutdu. Ermənistan hakimiyyətinin və erməni lobbisinin tələbi ilə siyasi oyuna qoşuldu, peşəkarlığa zidd addım atdı, komandasına vacib oyunda kömək etməkdən imtina etdi. Ancaq "Arsenal"ın, erməninin bu addımı ilə barışacağını güman etmirəm. Böyük ehtimalla, Mxitaryan yayda "Arsenal"dan göndəriləcək. Sadəcə, klub rəhbərliyi belə həssas məqamda komandanın düşərgəsində abı-havanın pozulmasını istəmir. Sizi əmin edirəm, Bakıdakı finaldan sonra bütün ittihamlar Mxitaryana qarşı yönələcək. Mətbuat da, azarkeşlər də onu tənqid edəcəklər. "Arsenal" qalib gəlsə də, məğlub olsa da Mxitaryan tənqid olunacaq. Komanda qalib gəlsə "yaxşı ki, Mxitaryan Bakıya gəlmədi, meydana çıxmadı, heç lazım da deyilmiş" fikri, məğlub olsa isə "qorxusundan komandasına kömək etmədi" düşüncəsi hakim olacaq. Bir sözlə, hazırda Mxitaryan ətrafında gedən təbliğata o qədər də böyük önəm verməməliyik, bütün diqqətimizi final oyununa yönəltməliyik, çalışmalıyıq ki, Avropa Liqasının finalını yüksək səviyyədə keçirək, heç bir təxribat olmasın. Təxribat törətmək istəyənlərin olacağını da istisna etmirəm. Hər şey yüksək səviyyədə başa çatdıqdan sonra erməni bicliyi elə erməninin öz başında çatlayacaq. Ondan sonra düşüncələr dəyişəcək. "Arsenal" azarkeşləri də Bakıda görəcəkləri xoş münasibətdən sonra fikirlərini mütləq dəyişəcəklər. Hazırda top Mxitaryanı siyasi şarlatanlığa sövq edənlərin ayağındadır. Amma mayın 29-dan sonra bizim ayağımızda olacaq".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

**İctimai iştirakçılıq və bu istiqamətdə vətəndaşlara yaradılan imkanlar cəmiyyətin inkişafı üçün olduqca mühüm məsələdir. Bir zamanlar arzu var idi ki, hansısa ictimai prosesin həyata keçirilməsində vətəndaşlara da rəy vermək, fikir bildirmək, təklif irəli sürmək üçün şərait yaradılsın. Bu arzu artıq gerçəkləşib.**

# Vətəndaşlar üçün SƏLİS imkan - e-vətəndaş ol!

## İctimai iştirakçılıq üçün yaradılan imkandan istifadə etmək həm də bir vətəndaş məsuliyyətidir







Prezident Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası elektron fəaliyyətə keçidlə bağlı uğurlu bir sistem tətbiq edib. SƏLİS (Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sistemi) 20-dək elektron xidməti özündə birləşdirən mükəmməl bir sistemdir. Burada QHT-lərin elektron müraciəti, elektron növbə, elektron apelyasiya, elektron qaydada idarəetmə, elektron hesabat və ictimai təşkilat fəaliyyətinə donorla əlaqələnmək üçün digər bütün imkanlar yaradılıb. Yəni artıq kimsənin Şuraya gedib, növbə gözləyib vaxt itirməsinə ehtiyac yoxdur. Otur ofisində, evində, layihəni göndər, cavab al, sənədlər yolla, hesabatını ver, müraciətini elə. Bu, ictimai fəaliyyət sektorunda novatorluqdur. Həm də şəffaflıq, insan amili, subyektiv yanaşmaların qarşısını alan sistemdir SƏLİS.

Və ən ciddi bir məsələ: QHT Şurası (SƏLİS) vətəndaşlara ictimai təşkilatların layihələrinə səs vermək, rəy bildirmək, tövsiyə, təklif vermək imkanları yaradıb. Çox mükəmməl bir qaydadır və indiyədək tanıdığımız, bildiyimiz istər yerli, istərsə də beynəlxalq donorların vətəndaşlara bu cür imkanlar tanıması halına rast gəlinməyib.

Çox sadədir: kompüter, yaxud telefonunda vetendas.e-qht.az ttp://vetendas.e-qht.az/ yazırsan, çox sadə, hər kəsin asanlıqla yararlana biləcəyi səhifə açılır. Cəmi 1 dəqiqə ərzində qeydiyyatdan keçirsən və Azərbaycan QHT-lərinin QHT Şurasına göndərdiyi və maliyyələşməsini istədiyi layihələrin hamısının siyahısını görürsən. Burada 15 istiqamət üzrə təklif olunan layihələrdə hansı məsələlərin qabardıldığı, hansı problemin həllinə dəstəkdən söhbət getdiyi, hansı maarifləndirici tədbirlərin keçiriləcəyi aydın şəkildə əksini tapır. Qarabağ həqiqətlərinin çatdırılması, insan haqları, gender məsələləri, icbari tibbi sığorta, bloggerlik, sosial media ilə bağlı layihə təklifləri, layihənin məqsədi, icrası planları, kimlərin yararlanacağı, nə faydaları olacağı haqda məlumatlarla da vətəndaşlar tanış ola bilərlər. Əgər hansı layihənin reallaşdırılmasını arzulayır və vacib bilirsənsə, ona səs ver, rəy bildir. Yaxud da sənə yaradılan imkandan istifadə edərək, özünün də təklifini, tövsiyəni, iradını yaz. Bir sözlə, QHT Şurası vətəndaşların ictimai təşkilatların layihə təkliflərinə öz fikrini bildirməsi üçün elektron qaydada və analoqsuz imkan yaradıb. Vətəndaşlar bundan istifadə etməlidir. Ən azı iki səbəbdən:

**Birincisi:** Biz zaman-zaman şahidi olmuşuq ki, QHT Şurası maliyyələşdirdiyi layihələri açıqlayandan sonra sosial şəbəkələrdə bir çoxları tənqidlər, iradlar bildirməyə başlayır ki, bəs bizim bu təşkilatdan, onun gördüyü işlərdən xəbərimiz yoxdur, bizə bu layihənin icrasının nə xeyri olacaq? Yaxud da biri deyir ki, bu layihə məsələn, Xaçmazda yox, Yevlaxda keçirilməli idi. İndi QHT Şurası vətəndaşlara nəticələr elan olunmamışdan, qaliblər müəyyənləşdirilməmişdən əvvəl onların təklif olunan layihələr haqda öz fikirlərini bildirməsi üçün imkan yaradıb. Əgər vətəndaş bu imkandan yararlanmayıb, sonra nəticələr elan olunanda giley edərsə, deməli, günah onun özündədir.

**İkinci səbəb:** İctimai iştirakçılıq üçün yaradılan imkandan istifadə etmək həm də bir vətəndaş məsuliyyətidir. Vətəndaş onun üçün yaradılan ideal şəraitdən istifadə etmirsə, vətəndaş cəmiyyətinin formalaşmasında iştirakdan boyun qaçırması deməkdir. Bu isə sabah onun maraqlarına zərbə vuracaq. Cəmiyyətin inkişafına, yeniliklərdən yararlanmağa hər birimiz borcluyuq.

Əsl vətəndaş olmaq üçün e-vətəndaş imkanından yararlanmaq günümüzün həm də bir tələbidir. Əmin olun ki, cəmi 5 dəqiqə vaxtınızı alacaq bu prosesdə iştirakdan sonra özünüzü psixoloji-mənəvi olaraq, rəyi, fikri lazım olan bir vətəndaş olaraq hiss edəcəksiniz.



❑ **Elşad MƏMMƏDLİ**

# "Qraçov Elçibəyə zəng vurub dedi ki..."

## Fəzail Ağamalı: "Elçibəyin zamanında Rəhim Qazıyevə cinayət işi açmaq istəyirdilər"

**Hər ilin may ayında Şuşa və Laçının işğalı ilə bağlı yeni-yeni müzakirələr açılır, iddialar, ittihamlar səsləndirilir. Müzakirələrin mərkəzi nöqtəsində isə o zamankı Azərbaycan Xalq Cəbhəsi (AXC) dayanır. Bu da təsadüfi deyil. Çünki AXC 27 il öncə martda istefaya gedib, iki aydan sonra Rusiyanın dəstəyi ilə hakimiyyətə gələn Ayaz Mütəllibovu inqilabla 15 mayda iqtidardan devirib.**



Belə fikirlər var ki, əgər bu çevriliş olmasaydı, 8 mayda gedən Şuşa geri qaytarılardı, 17 mayda isə Laçını itirməzdik. Arqument kimi A.Mütəllibovun Rusiyanın adamı olması göstərilir.

**Milli azadlıq hərəkatının fəallarından olan, 27 il öncəki hadisələri şahidi, Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı "Yeni Müsavat"a bununla bağlı şok faktlar açıqladı:** "Əslində Şuşanın və Laçının itirilməsi arasında çox qısa zaman oldu. Ermənilər üçün bunlardan biri digərini tamamlayan məsələ idi. Azərbaycan üçün də Şuşa və Laçın taleyüklü məsələ idi. Şuşa getmişdisə, ermənilər müxtəlif yollarla Ermənistanla Dağlıq Qarabağ arasında koridor açmaq istəyirdilər. Faktiki olaraq strateji məkan olan, strateji əhəmiyyət daşıyan Şuşa getmişdi. Dağlıq Qarabağdakı ermənilərlə Ermənistandan orada olan separatçılara köməyə gələn quldur dəstələri arasında Laçın koridoru dayanırdı. Bu koridoru açmaq və birbaşa Ermənistanla Dağlıq Qarabağ arasında quru yolunu təmin etmək birinci dərəcəli vacib idi. İkinci dərəcəli isə Kəlbəcər oldu. O vaxtı Rusiyadakı Yeltsin hakimiyyətinin Ermənistanın yanında olmasını nəzərə alaraq, eyni zamanda Rusiyanın dərin dövləti hər iki ölkəni gələcəkdə təsir dairələri altında saxlamaq üçün məhz bu əməliyyatları davam etdirib, Laçını almaqla Dağlıq Qarabağı və onun ətrafındakı rayonları Azərbaycanın nəzarətindən çıxarmalı idi və bunu da etdi. Ona görə də Ayaz Mütəllibov qalsaydı, bunlar olmayacaqdı, Xalq Cəbhəsi hakimiyyətə gəlməsəydi, bunlar baş verməyəcəkdi kimi fikirlər mənim üçün inandırıcı deyil. Çünki Ayaz Mütəllibov 1992-ci ilin martına qədər hakimiyyətdə idi. Sual olunur, o zaman Ayaz Rusiyanın bilavasitə himayəsi altında olan 366-cı alayın Xocalı faciəsini törətməsinə nə üçün mane olmadı? O zaman kəndlərimiz od tutub yanırdı, qırğınlar törədilirdi, Şuşanın demək olar ətraf kəndləri işğal edilmişdi, Ayaz harada idi? Niyə bunlara imkan verirdi? Ona görə də Ayaz Mütəllibovun, yaxud Xalq Cəbhəsinin olub-olmamasından asılı olmayaraq, yaranan həmin situasiyada Rusiyanın birbaşa yardımı, hərtərəfli dəstəyi ilə Laçın da, eyni zamanda Dağlıq Qarabağ da işğal olundu. Bütün bunlarla yanaşı, Azərbaycanın içərisində olan, Rusiyanın Baş Kəşfiyyat İdarəsində yer alan Rəhim Qazıyev, Elbrus Orucov kimi adamlar Şuşa və Laçının işğalında ciddi rol oynadılar. Onlar da Rusiyanın planının içərisində idilər, ələ alınmışdılar. Onlara müəyyən tapşırıqlar verilirdi. Bu tapşırıqlara uyğun olaraq addımlarını atırdılar. Şuşa və Laçının işğalında onların oynamış olduqları şərəfsiz rol öz nəticələrini göstərdi. Bunlar tarixdir. Kim nə desə də, qışqırsa da, hansısa səviyyədə özünü təmizə çıxarmağa çalışsa da, bunlar reallıqdır".

**Deputat o zaman müdafiə naziri olan Rəhim Qazıyev haqqında ciddi ittihamlar irəli sürdü:** "Yadıma gəlir ki, Əbülfəz Elçibəyin zamanında Rəhim Qazıyevə cinayət işi açmaq istəyirdilər. Çünki müdafiə naziri idi və ən müxtəlif yerlərdə ermənilərin məqsədlərinin həyata keçməsinə şərait yaradırdı. Məndə olan dəqiq məlumata görə, Qraçov birbaşa Əbülfəz Elçibəyə zəng vurub deyib ki, əgər Rəhim Qazıyev müdafiə naziri vəzifəsindən getsə, bütün torpaqları işğal edəcəyik. Bunun şahidləri var. Fazil Mustafa, Əli Kərimli və digər şəxslər şahiddirlər. Bu baxımdan deyərdim ki, Laçın Rusiyanın hərtərəfli dəstəyi ilə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunub. Orada baxmayaraq ki, Arif Paşayevin rəhbərliyi altında könüllülər batalyonu çox fədakarlıqla mübarizə aparırdı, müharibədə iştirak edirdilər. Lakin o zaman hansısa bir yolla, kim elədi, nə üçün elədi, deyə bilmərəm, o qüvvələr cəbhə xəttindən götürülərək, Bakıya gətirildi. Bunun da müəyyən rolu oldu. Əgər onlar gəlməsəydi, orada döyüşlər aparılsaydı, uzun müddət çəkə biləcək müqavimət göstərilə bilərdi, nəticədə proses uzanardı. Könüllərimiz və silahlı qüvvələrimizə nisbətən Ermənistan peşəkar rus ordusu ilə bərabər müxtəlif yerlərdə qulluq edən, hərbidən kifayət qədər başı çıxan quldur dəstələri ilə döyüşlərdə iştirak edirdi. Belə bir vəziyyətdə ölkədə gedən siyasi proseslər, hakimiyyət uğrunda mübarizə ermənilərə imkan verdi ki, qısa zaman kəsiyində torpaqlarımızı işğal etsinlər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Oğrudan oğruya halallıq



**Zamin HACI**
**zaminhaci@gmail.com**

"- Qocaların yeni dəstəsidir? - Ostap soruşdu.
Bunlar yetimlərdir, - Alxen cavab verdi, müfəttişin çiynini qucaqlayıb onu mətbəxdən bayıra basdı və gizlincə yetimləri yumruğu ilə hədələdi.
Volqaboyu uşaqları?"

***(İlf və Petrov, "12 stul")***

**Bir almaniyalı jurnalist yazıb ki, Bakıda keçiriləcək "Arsenal"-"Çelsi" final oyununa 100 dənə bileti azərbaycanlı kasıb uşaqlarına bağışlayıblar. Kim bağışlayıb? Əlbəttə, azərbaycanlı məmurlar. Zarafat edirəm. Bizdə kasıb balalarına dövlət qayğısı var, onlara top qovmağa imkan verə bilmərik. O işlə məmurların qohum-əqrəbaları, tanış-tunuşları məşğul olurlar. Deyir alman futbol komandası "Ayntraxt"ın azarkeşləri öncədən finala bilet alıbmışlar, lakin sevimli komandaları yarımfinalda uduzduğundan daha Bakıya gəlməkdən vaz keçiblər. Bəs 100 bilet hansı azərbaycanlı kasıb uşaqlarına paylanıb? Təəssüf ki, bu haqda da xəbərdə heç zad yox idi. Böyük ehtimalla onlar da elə məmur uşaqları olmuşdur, çünki bizdə yalnız dövlətə qulluq edən məmurlar kasıbdır. Ancaq maaşla yaşayırlar yazıqlar...**

Eyni zamanda mənim yadıma gəlir, almanlar Bakıda "Evrovızqon" manıs yarışması keçirilərkən də bizə təxminən buna bənzər jest eləmişdilər: onlarla alman musiqi həvəskarı ordan Bakıya qədər maşın sürüb gəlmişdilər, burda isə həmin maşınları qaçqınlara, məcburi köçkünlərə bağışlayıb getmişdilər. Ancaq hökumətimiz o maşınları Binəqədi tərəfdə bir çöllükdə yığıb saxladı, hamısını çürütdü, dağıtdı, kasıblara vermədi. Səbəbini bilən olmadı. Hətta belə şaiyə yayılmışdı ki, guya maşınlar gömrük rüsumu ödənmədiyindən bağışlana bilməzmiş.

Mən isə bütün bu əhvalatlarda təxribat, dövlətçiliyimizə sataşmaq cəhdləri görürəm. Almanlar işarə vurur ki, guya Azərbaycanda azı 100 dənə kasıb uşaq var, futbola özləri bilet almaq imkanından məhrumdur. AzTV-nin bir vaxtlar yaydığı "Almaniya dağılır" reportajlarının heyfini çıxırlar. Boş söhbətdir. Bizim bu dəqiqə istənilən idman yarışını, hətta qalaktikalararası şahmat turnirini keçirtmək imkanımız varsa (Nyu Şəmkirdə təxminən keçirilir), yüz bileti də özümüz alıb nazirlərin uşaqlarına verərik. Sözgəlişi, məşhur alman futbolçusu Berti Foqts müəllimi neçə il Bakıda milyonlarla avroya işlətmədikmi? Heç bir nəticə yox idi, ancaq biz onu buraxmırdıq, pulla satın almışdıq. Əsas ona görə ki, almanları özümüzə işlətdiyimizi dünya ictimaiyyətinə sübut edək. Lakin nədənsə dünya ictimaiyyəti bu ədalətsizliyə hələ də dözür. Eybi yox, hamının qisası haçansa alınır.

Misal üçün, bugünlərdə bizim bir məhkəmə prosesindən gülməli reportaj yaymışdılar. Cindarlar, falçılar bir zənən xeylağını aldadıb 57 min dollarını, 15 min funt sterlinqini, 600 qram qızılını, xeyli manatını əlindən alıblar. Ümumilikdə 217 min manatı qopardıblar. 21-ci əsrdə hələ də cindar, falçı kimi tiplərə inanan "qazlar" varsa, bəlkə də onların yolunmasına halal iş kimi baxmalıyıq. Ancaq əhvalatın detalları yolunma aktında hansısa mistik ədalətdən də xəbər verir, çünki zərərçəkmişin bu pulları hardan qazanması sualı ortaya çıxır. Sən demə, bunun əri "özəl" şirkətlərimizdən birində şöbə müdiri imiş. Həmin şirkəti niyə dırnaq arasında "özəl" yazıram, çünki bunun yiyəsi də elə həmin "özəl-mözəl" işlərinə baxan dövlət idarəsi müdirinin yaxın qohumudur. Səbəb-nəticə, quyu-qazan, oğrudan oğruya halallıq əlaqələrinin bariz nümunəsinə şahid olmuşuq. Dövlət məmuru camaatı soyub şirkət qurmuş, həmin şirkət ev tikərkən camaata ikiqat zülmlər eləmişdi. Sonra cindarlar təbiətin göndərdiyi bəla şəklində ortaya çıxıb şirkətin şöbə müdirini soymuşdur. Təbii, pullar falçılarda da qalmayacaqdır, hakim yoldaşlar, prokuror müəllimlər özlərinə görə gələcəkdən xəbər vermək qabiliyyətinə malik deyillərmi?

Yaxşı yadıma düşdü, görəsən, MTN şefi Eldar müəllim Metro Tağının 3 milyon dollarını qaytardımı? Qaytarmayıbsa, almanlardan xahiş edək, biletin birini Tağı müəllimə versinlər. Kasıb adamdır, ta qabaqkı kimi tədbirlərə gedə bilmir. Eldar müəllimin üzündən...



# Ermənistanda panika - "Ölkənin və inqilabın altına mina qoyulub..."

## İşğalçı ölkədə Qarabağ məsələsi yox, Qarabağ klanı önə çıxır, "Moskvanın İrəvana qarşı qəsd planı var" iddiaları artır; **sabiq XİN başçısı:** "Paşinyan gec-tez devriləcək..."

**Ermənistanda "məxməri inqilab"ın 1 ilinin tamamında baş verən olaylar az qala, inqilabın özü qədər şok effekti yaradıb. İlk növbədə də inqilabı edənlər və inqilab müəllifi Nikol Paşinyan üçün.**

Söhbət hakimiyyətin iradəsinə rəğmən, məhkəmənin 1 mart 2008-ci il qanlı hadisələrinə görə tutulan eks-prezident Robert Köçəryanın Dağlıq Qarabağdakı separatçı rejimin indiki və keçmiş başçılarının zəmanəti əsasında azadlığa buraxmasından gedir. Bu azmış kimi, ardınca cinayət işi, ümumiyyətlə, dayandırılıb və yekun qərar üçün Konstitusiya Məhkəməsinə yönəldilib.

Faktiki, Paşinyanın başı üzərindən baş verən bu hadisələr işğalçı ölkədə bir il öncəki hakimiyyət dəyişikliyinə rəğmən, məhkəmə-hüquq sistemində keçmiş xunta rejiminin adamlarının hələ də güclü olduğunu ortaya çıxarıb. Təbii ki, prosesdə "Moskva izi" də olmamış deyil. Ən azı, ona görə ki, Robert Köçəryan və onunla birgə saxlanılanlar (onlar da buraxılıb) - keçmiş müdafiə naziri Seyrran Ohanyan, hamısı Moskvaya bağlı və Kremlə sadiq adamlardır.

*****

"Məhkəmənin Köçəryan haqda qərarı və cinayət işinin dayandırılması tərəddüdsüz-filansız, qalmaqallı qərar sayıla bilər. Bu qərarla məhkəmə hakimiyyəti faktiki, əks-inqilaba qoşulub. Hətta iddia eləmək olar ki, bununla köhnə sistemin bərpası işinə yeni nəfəs verilib".

"Yeni Müsavat"ın məlumatına görə, bu sözlər erməni siyasi şərhçi Sərkis Arsruninin 1 in.am saytındakı dünənki məqaləsində yer alıb.

**Müəllif yazır:** "Belə bir xain çevriliş planının inqilabdan bir il sonra niyə mümkün olması haqda uzun-uzadı danışmaq olar. Aydındır ki, problem ilk baxışda göründüyündən qat-qat dərindədir. Robert Köçəryan və ya onun məhkəməsi, məhkəmə-hüquq islahatları haqda söhbətlər, hətta Nikol Paşinyanın dünənki (srağagünkü - red.) mübahisəli çağırışı problemin yalnız növbəti təzahürləridir. Dərində isə ölkənin, inqilabın altına mina qoyulub, əsl qəsd yetişir. Hansı qəsdin ki, daxili oyunçuları və çox aydın görünən xarici aktyoru var".

**Erməni təhlilçiyə görə, problemin ciddiliyini anlamaq üçün 1999-cu il hadisələrini yada salmaq kifayətdir. O zaman parlamentin güllələbaran edilməsi nəticəsində Moskvaya bağlı Köçəryan və onun rejimi əsas rəqibi olan Karen Dəmirçyandan (spiker) və Vazgen Sərkisyandan (baş nazir) qurtulmuşdu.**

"O vaxt müstəsna olaraq, legitim hakimiyyət formalaşdıran Dəmirçyan-Sərkisyan tandeminin irəliləməsi elə həmin daxili aktyorların və həmin xarici mərkəzin iştirakı ilə dayandırıldı. Əlbəttə ki, zəmanə dəyişib və eyni ssenarinin mexaniki təkrarlanmasına ehtiyac yoxdur, ələlxüsus elə bir vaxtda ki, şimalda ən yeni texnologiyaları mənimsəyiblər, hətta qəsd planlarını kreativ əsasda reallaşdıra bilərlər. Bütün bunların əlamətləri artıq ortadadır. Və indi mahiyyət etibarilə konkret hakimiyyətin, hətta inqilabın deyil, Ermənistanın suverenliyinin taleyi həll olunur. Paşinyanın va-bank təşəbbüsü məhz bununla bağlı idi", - deyə müəllif sonda əlavə edib.

*****

İşğalçı ölkədəki son olaylar Paşinyana təbii ki, yaxşı heç nə, ən yaxşı halda ikihakimiyyətlilik vəd edir. Ən pis halda isə keçmiş "səhra komandiri" və Xocalı hərbi canisi R.Köçəryan və dəstəsi tərəfindən növbəti dəfə sui-qəsd planının işə salınması istisna olunmur - təbii ki, 1999-cu ildəki kimi, Moskvanın rüsxəti ilə.

**Ermənistan daxilində son yaşananların bu xüsusda nə ilə bitəcəyi ilə bağlı Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarovun proqnozu da maraqlıdır.**

"Sözsüz ki, gec və ya tez Paşinyan devriləcək. Çünki Ermənistanın siyasi ənənəsi göstərir ki, onlarda normal siyasi proseslər mümkün deyil. Ya orada kimisə güllələyir, ya devirir, ya da döyürlər. İndiki mərhələdə konkret qarşıdurma kəskinləşir və bunun çıxış yollarını tapmaq üçün onlar hərbi "kart"a əl ata bilərlər", - deyə o ehtimal edib. Zülfüqarova görə, biz məsələnin bu hissəsindən ehtiyatlı olmalıyıq. "Ermənistan tərəfindən hərbi provokasiya real görünür. Biz buna hazır olmalıyıq", - deyə eks-diplomat xəbərdarlıq edib.

*****

Ancaq istər Ermənistan daxilində Moskvanın əli ilə reallaşan və reallaşacaq qəsd və çevriliş ssenariləri olsun, istərsə də Qarabağ cəbhəsində vəziyyəti qarışdırmaq planı - bütün bunlardan erməni xalqının, onun yeni hakimiyyətinin etibarlı sığortalanması üçün tək yol - İrəvanın Dağlıq Qarabağ məsələsində konstruktiv mövqe tutması, Moskvanın istəyinə rəğmən, Ermənistanın qonşu Azərbaycan və Türkiyə ilə anlaşmasıdır. Təəssüf ki, indiki erməni hökuməti Qarabağ məsələsinə yanaşmada köhnə iqtidarlardan fərqli yanaşma sərgiləmədi. Erməni xalqını sülhə deyil, qeyri-müəyyənliyə hazırlamaq xətti götürdü.

"Bu günədək erməni cəmiyyətində Qarabağa dair nizamlama ssenarisi ilə bağlı yekdil mövqe yoxdur. Bir qisim deyir "bir qarış da torpaq verilə bilməz", başqaları isə əksinə, kompromisin vacibliyindən danışır". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri "Sputnik Armeniya"ya erməni politoloq Manvel Sərkisyan deyib.

"Ermənistanda hüquq və məsuliyyət haqda olduqca yayğın təsəvvür var. Biz hər şeyi şübhə altına qoymağa və gözdən salmağa o qədər adət eləmişik ki, istənilən sağlam fikir biz tərəfdən süngü ucunda qarşılanır və şübhəyə məruz qoyulur", - deyə Sərkisyan etiraf da bulunub.

Ancaq belə xəstə yanaşmanın sonu bir gün gəlməlidir. Əks halda, Ermənistan adlı simvolik dövlətin sonu gələcək - ya Moskvanın əli ilə, ya da onsuz...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 111 (7281) 23 may 2019

**Dünyaya azərbaycanlılarla sülh istəməsi barədə car çəkən, özlərini qədim və zəngin mədəni irsə sahib olan millət kimi təqdim edən ermənilərin əsl xislətini onlarla qonşuluqda yaşamağa məcbur olmuş xalqlar yaxşı bilir.**




# Ermənistan xüsusi xidməti orqanlarına satılan iki xainin miskin hekayəsi - sensasion faktlar

## Düşmən ölkənin Azərbaycana qarşı təxribat planlarında yer alan satqınlar - Abbaszadə-Məhərrəmov tandemi haqda ilginc detallar

Azərbaycanın Qarabağ bölgəsini işğal etmiş, Gürcüstanın Samsxe-Cavaxetiya bölgəsinə iddialar sürmüş, Abxaziyadan abxazları sıxışdırıb çıxartmış, Cənubi Qafqazda yaşayan ləzgilərin milli heysiyyəti ilə oynamağa çalışmış ermənilərin Azərbaycan talışlarını da öz oyunlarında istifadə etdiyi sirr deyil. 90-cı illərin əvvəlində ölkəmizdə olan siyasi hərc-mərcliyin nəticəsində qarşılaşdığımız və indiyədək davam edən problemlərdən biri də Rusiya və digər xarici ölkələrdə məskunlaşmış bəzi talış mühacirlərin Ermənistan xüsusi xidmət orqanlarının toruna düşərək öz mərd həmyerlilərini də Azərbaycana qarşı xain işlərə cəlb etməyə çalışmasıdır.

Belə mühacirlərdən biri Bakı Dövlət Universitetinin müəllimi Fəxrəddin Abbaszadədir. Məlumdur ki, o, 1993-cü ildə AXC təsisçilərindən biri Ələkrəm Hümmətovun Əbülfəz Elçibəyə qarşı çıxmasından sonra Azərbaycanın cənub rayonlarında cəhd etdiyi "qarapapaqların" silahlı qiyamına dəstək verdikdən sonra özünü talış təəssübkeşi kimi tanıtmağa çalışmışdır. Nə 1993-cü il uğursuz qiyamı, nə də ki, onu dəstəkləmiş Fəxrəddin Abbaszadə talışların maraqlarını müdafiə etmirdi. Əgər o qiyam Ələkrəm Hümmətovun Elçibəyin nəzarət etdiyi AXC-nin daxilində fərqli dəstəyə qoşulması və siyasi oyunbazlığı idisə, Abbaszadənin də qiyamdan sonra yeganə ümidi gəlirli bir vəzifəyə yiyələnmək olmuşdur. Amma bilirsiniz ki, bu, baş tutmadı. Mərd Lənkəran övladları qiyamı da, onun dəstəkçilərini də özləri yerinə otuzdurdular. İllər keçəcək, Ələkrəm Hümmətov özü Hollandiyadan Ermənistana gedəcək, habelə, Qarabağda döyüşməyə cəsarət etməmiş Fəxrəddin Abbaszadə Ermənistan xüsusi xidmət orqanları ilə işbirliyinə gedərək, doğulduğu Lerik rayonuna, talışlara və bütövlüklə Azərbaycana xəyanət edəcək.

Fəxrəddin Abbaszadə Ermənistanın xüsusi xidmət orqanlarının diqqətini hələ 90-cı illərin sonlarında cəlb etmişdir. 1998-ci ildə Ermənistanda saraydaxili siyasi çevriliş nəticəsində Azərbaycan və Türkiyə ilə münasibətləri nizama salmağın tərəfdarı olmuş prezident Levon Ter-Petrosyan istefaya məcbur edilmiş və bu ölkədə hakimiyyət Qarabağ separatçılarının əsas şəxsləri Robert Köçəryan və Serj Sərkisyanın əlinə keçmişdir. Bu həmin dövr idi ki, prezident Heydər Əliyevin çevik siyasəti ilk nəticələrini verməyə başlayır; Azərbaycan öz enerjidaşıyıcılarını müstəqil şəkildə Qərbə ixrac etməyə, ölkəmizin ərazisindən keçəcək "İpək Yolu" tranzit layihəsi ideyası formalaşmağa başlayırdı. Respublikanın müstəqil xarici siyasət kursunu gözü götürməyən bəzi iri dövlətlər və onların əlaltısı yeni Ermənistan hökuməti Azərbaycanı ən vacib yerindən - ölkədəki millətlər arasındakı əmin-amanlıqdan - vurmaq üçün Fəxrəddin Abbaszadə kimilərə ehtiyac duymağa başladı.




2002-ci ildən etibarən Abbaszadə yaşadığı Sankt-Peterburq şəhərində ermənilərin maliyyə dəstəyi ilə "Toliş" adlı qəzetin nəşrinə başlayır. O, həmin dövrdə verdiyi müsahibələrdə İrəvan Dövlət Universitetinin İranşünaslıq kafedrası ilə sıx işlədiyini gizlətmir, bu kafedranın pərdəsi altında yaradılmış "Qafqaz İranşünaslıq Mərkəzi"nin rəhbəri Qarnik Asatryanla münasibətləri barədə açıqlamalar verirdi.

Qarnik Asatryan kimdir? Rəsmi məlumatlarda onun haqqında yazılıb ki, 1996-cı ildən İran hökumətinin maliyyələşdirdiyi "Qafqaz İranşünaslıq Mərkəzi"nə rəhbərlik edir, talışlar, kürdlər və Türkiyə barədə çoxsaylı materialların müəllifidir - elm adamı, şərqşünasdır. Əslində elə deyil - 1955-ci ildə Tehran şəhərində SSRİ DTK-sı tərəfindən himayə olunan "Tude" solçu partiyasının funksionerinin ailəsində anadan olmuş Asatryanın bütün ömrü əvvəlcə SSRİ, sonra isə Ermənistan xüsusi xidmət orqanları ilə bağlı olmuşdur. O, elə Ermənistan elm adamlarının arasında da eləcə tanınmışdır. Sovet dövründə Asatryan İranşünas alim kimi formalaşaraq DTK-nın İrana qarşı olan tapşırıqlarını icra edirdi. SSRİ dağıldıqdan sonra Ermənistan xəfiyyəsi onun vəzifələrini korrektə etmişdi: indidən sonra o, Azərbaycana qarşı fəaliyyət göstərməli idi. Qarnik Asatryan Ermənistan xüsusi xidmət orqanlarının kadr zabitidir və bu fakt Fəxrəddin Abbaszadəyə onun 2005-ci ildə Ermənistana ilk səfəri zamanı məlum oldu. Lakin o, nəinki onunla əlaqəni kəsmədi, tam əksinə, talışlar adından Azərbaycana qarşı yeni təxribatlara razılaşdı və bu işlərə razılaşa biləcək özü kimi digər mənəviyyatsız soydaşlarımızın axtarışına başladı.

2000-ci illərin ortalarından Rusiya və işğal olunmuş Qarabağ ərazisində təşkil olunmuş bütün təxribatçı talış kampaniyaları, İrəvandakı talış dili konfransları, "Talışstan Səsi" radiosunun yayımı, "Talış Milli Televiziyasının" fəaliyyəti və talış milliyyətli bəzi mühacirlərin Ermənistana çıxarılması Asatryan-Abbaszadə tandeminin səyləri ilə mümkün olmuşdur. Bu tandemdə Qarnik Astryanın təmsil etdiyi Ermənistan xüsusi xidmət orqanları Azərbaycanda milli-irqi düşmənçiliyin salınmasına çalışırdısa, Fəxrəddin Abbaszadəni yalnız pul maraqlandırırdı.

Ermənistanda keçirilən kampaniyalarda bu ölkə xəfiyyəsinin digər bir əməkdaşı da xüsusi canfəşanlıq edirdi - Ermənistan hərbi kəşfiyyatının polkovniki Artur Aznavuryan. Lakin Asatryandan fərqli olaraq onun pərdəsi elə də yaxşı təşkil olunmamışdı. Ona görə, Ermənistan xüsusi xidmət orqanları xainlərin sıralarını genişləndirmək tapşırığını Fəxrəddin Abbaszadəyə Qarnik Asatryan vasitəsilə çatdırıblar. O isə namizəd kimi Rusiyada yaşayan və maddi baxımdan korluq çəkən Zabil Məhərrəmovu təklif edir.

Ermənilər Zabil Məhərrəmovu cüzi məbləğ müqabilində əməkdaşlığa cəlb edirlər. O "Talış Milli Televiziyasının" verilişlərinin hazırlanmasında iştirak etməyə başlayır və İrəvana köçür. Yuxarıda qeyd olunduğu kimi, bu layihənin də kuratoru Qarnik Asatryandır. Lakin Zabil Məhərrəmov Fəxrəddin Abbaszadədən fərqli olaraq xeyli aşağı səviyyəli intellektual potensiala malik olduğuna görə onun televiziya çıxışlarının mətnlərini Abbaszadə mütləq yoxlayır və redaktə edirdi. Fəxrəddin Abbaszadə həmçinin bu televiziyanın verilişlərində "Talış milli hərəkatı" adından yayımlanan verilişlərin hazırlanmasını birbaşa özü həyata keçirirdi. Erməni kuratorlarının verdiyi az miqdarda vəsait Abbaszadə ilə Məhərrəmov arasında vaxtaşırı olaraq pul söhbətlərinin yaranmasına səbəb olurdu. Abbaszadə isə az pulun verilməsini Ermənistan xüsusi xidmət orqanları ilə bağlayırdı. Digər tərəfdən, talış diasporunda və Azərbaycandakı talışlar arasında ermənipərəst mövqeyinə görə tam rüsvay olunmuş Zabil Məhərrəmov ağır psixoloji duruma düşmüşdü. Son nəticədə Zabil Məhərrəmov Qarnik Asatryanla pul söhbəti edir və sonuncu onun gördüyü işin müqabilində məvacibini cüzi artırır.




Ən maraqlısı isə bu zaman baş verir. Zabil Məhərrəmovu Ermənistandan buraxmaq istəməyən xüsusi xidmət orqanları onun azyaşlı erməni qızını zorlamasını sənədləşdirirlər. Ciddi və rüsvayçı ittihamla üz-üzə qalmış Zabil Məhərrəmov Asatryana müraciət etməli olur və sonuncu məsələnin ört-basdır edilməsində köməkliyini vəd edir. Çox güman ki, Zabil Məhərrəmov İrəvanda qalıb fəaliyyətini davam etdirməli olacaqdı. Lakin bu zaman Ermənistan xüsusi xidmət orqanları Z.Məhərrəmovun RF vətəndaşı olduğunu nəzərə alaraq, onun ətrafında bu prosesi dayandırmağa qərar verir və Zabil Məhərrəmov İrəvandan Moskvaya getməyə müvəffəq olur (bəzi məlumatlara əsasən, Ermənistan hərbi kəşfiyyatının əməkdaşları ona qadın paltarı geyindirir, aşağılayır və bu səhnəni videoya çəkirlər). Buna baxmayaraq, barəsində Ermənistanda çoxlu nüfuzdansalıcı məlumatların olduğunu bildiyinə görə Z.Məhərrəmov Rusiyada ola-ola Asatryanın kuratorluq etdiyi layihələrə köməklik edir. Bu dəfə demək olar ki, pulsuz, təqib oluna biləcəyindən qorxduğuna görə.

Ermənistan xüsusi xidmət orqanlarının Qarnik Asatryan və Fəxrəddin Abbaszadə vasitəsilə talışlara qarşı çirkin oyunlarının tarixi bununla bitmir. Onlar müxtəlif əfsanələr altında mühacirətdə yaşayan həmvətənlərimizə qarşı əməllərini hələ bir müddət davam etdiriblər.

Təəssüf ki, ermənilərin Azərbaycandakı talışlara "azad" edəcəyi barədə yalançı vədlərinə inananlar olub və bu insanlar barədə bizim araşdırmamızın davamı gəlir...

**❑ "Yeni Müsavat"ın informasiya və təhlil şöbəsi**

YENİ MÜSAVAT
N 111 (7281) 23 may 2019

# Sabunçu vağzalının dünəni və bu günü...

## Sabunçu sakinləri müasir standartlara uyğun qurulan vağzalın fəaliyyətə başlayacağı günü gözləyirlər...

**Mayın 21-də prezident İlham Əliyevin iştirakı ilə Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışı oldu. Dövlət başçısı əvvəlcə qəsəbə sakinləri ilə görüşüb söhbət etdi, yaxınlıqdakı mağazaya daxil olub, qiymətlərlə maraqlandı. Daha sonra isə yeni inşa edilən Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış oldu.**











“Yeni Müsavat”ın əməkdaşı olaraq vağzala yollanıb, görülən işlərlə tanış olduq. Vağzalın qapısı media nümayəndələrinin üzünə açıq idi. Hər kəs içəri daxil olub, fotolar çəkib, aparılan işlərlə yaxından tanış olurdu. Öyrəndik ki, vağzal istifadəyə verilməyib. Bu barədə “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Sevinc Qədirova “Yeni Müsavat”a məlumat verdi. O dedi ki, hələ vağzalın istifadəyə veriləcəyi tarix məlum deyil. S. Qədirova bildirdi ki, bütün işlər tamamlandıqdan sonra açılış tarixi ilə bağlı ictimaiyyətə məlumat veriləcək.

Vağzal kompleksində olduğumuz zaman bütün mərtəbələri gəzdik. Müşahidə etdik ki, vağzal kompleksi tamamilə müasir konstruksiyalardan tikilib, hazırlanıb. Eləcə də dəmiryolu xətləri yenilənib, müvafiq işlər aparılıb. Hələ ki piyada keçidləri istifadəyə verilmədiyi üçün Sabunçu sakinləri relslərin üzərində keçib, evlərinə gedirdilər. Onlarla söhbətimiz zamanı bildirdilər ki, ərazidə müasir piyada keçidinin inşa edildiyindən məlumatlıdırlar. Bildirdilər ki, vağzalın istifadəyə veriləcəyi günü gözləyirlər: “Vağzal işə düşdükdən sonra biz də yaradılan şəraitdən istifadə edəcəyik. Əvvəl vağzalın yanında dəmirdən piyada keçidi var idi. Köhnə olduğu üçün oradan keçmək bizim üçün çox çətin idi. Hazırda isə müasir keçid tikilib. Bu, bizim üçün də xoş haldır”.

Vağzalın içərisində görülən və görüləcək işlər barəsində məlumat lövhəsi də vurulub.

Məlumat verildi ki, inşasına ötən ilin iyunundan başlanılan üçmərtəbəli binanın ümumi sahəsi 4,1 min kvadratmetrdir. Binanın birinci mərtəbəsində gözləmə zalı, bilet satışı kassaları, məlumat bürosu, server otağı, əşyaların saxlanması kameraları yerləşir. Hər üç mərtəbədə ticarət mərkəzlərinin yaxın günlərdə istifadəyə verilməsi planlaşdırılır. Öyrəndik ki, burada müasir dizaynla tərtib olunan istirahət guşələri sərnişinlərin rahatlığını təmin edəcək.

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətindən bildirildi ki, işçilərin əmək fəaliyyəti üçün bütün lazımi imkanın olduğu binada, eyni zamanda, hərəkət qabiliyyəti məhdud olan insanlar üçün də xüsusi şərait yaradılıb:**

“Vağzalda müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemləri, əlavə olaraq eskalator, lift, 17 turniket quraşdırılıb, iki piyada alt keçidi inşa edilib. Layihə çərçivəsində Sabunçu vağzalında iki yeni platforma salınıb, işıqlandırma dirəkləri və müasir sərnişin dayanacaqları quraşdırılıb. Stansiyadakı üç dəmir yolu xətti tamamilə yenidən qurulub. Sabunçu vağzalında dəmir yolu polisinin üçmərtəbəli binası da tikilib və zəruri avadanlıqla təchiz olunub”.

**Məlumat verilib ki, Bakı sərnişin - Sabunçu marşrutu üzrə dəmir yolu xəttinin uzunluğu bir istiqamət üzrə 13,5 kilometrdir:**

“Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzərindəki Bakıxanov, Koroğlu, Keşlə və Nərimanov dayanacaqları tamamilə yenidən qurulub. Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə bütün rabitə və işarəvermə işləri tamamilə yenilənib, elektrik dirəkləri, rigelləri və kontakt şəbəkəsi yenidən qurulub. Layihəyə əsasən Bakı dairəvi dəmir yolu xətti üzrə görülən işlərin davamı olaraq Məmmədli kəndində uzunluğu 17 metr olan yeraltı avtomobil keçidi, həmçinin Kürdəxanı kəndində uzunluqları 22 metr olan yeraltı avtomobil və yerüstü piyada keçidləri tikilib”.

**Qeyd edək ki, “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov AzTV-də çıxışı zamanı bildirib ki, Sabunçudan Bakıya hərəkət edən qatarlarda gediş haqqı 50 qəpik təşkil edəcək:** “Dayanacaqları nəzərə almaqla Sabunçu dəmir yolu vağzalından Bakı stansiyasına 15 dəqiqə ərzində çatmaq mümkün olacaq. Gələcəkdə dəmir yolu xətləri Əhmədli, Zirə, Pirallahı, həmçinin Heydər Əliyev adına Hava Limanına qədər uzanacaq”, - deyə C. Qurbanov bildirib.

**❑ Əli RAİS,**
**“Yeni Müsavat”**
**Fotolar müəllifindir.**

# 165 saylı marşrutun sürücüsü ağır qəza törətdi, ilginc faktlar üzə çıxdı - nazirə, baş prokurora müraciət

## Ceyhun Əmrahov: “Qanunsuz şəkildə 2 növbə ardıcıl işləyib, sükan arxasında yatıb və...”

**“Avtobus gəldiyi sürətlə 8 maşını vurdu. Sükanı arxasında olduğum maşın xurd-xəşil oldu. Qəza olanda qızımı məktəbdən gətirirdim, o da maşında idi. Maşının şüşələri uşağın üstünə töküldü. Qəzadan 2 həftədən çox keçir, uşağın yuxusu qaçıb, gecələr qışqırır, ağlayır. Bizə vurulan ziyanı da ödəyən yoxdur”.**







“Yeni Müsavat”a müraciət edən Bakı sakini Ceyhun Əmrahov belə deyir. Onun bəhs etdiyi qəza mayın 6-da, Bakının Yasamal rayonunda, Şərifzadə küçəsindəki “ASAN xidmət”in yaxınlığında baş verib. 165 saylı marşrut üzrə hərəkət edən “Daevo” markalı, Az 99 LZ 861 nömrə nişanlı avtobus sürətlə hərəkətdə olduğu zaman 8 maşına çırpılıb. Ceyhun Əmrahov deyir ki, onu və qızını Allah qoruyub: “Svetaforda dayanmışdıq. Anidən güzgüdən arxaya baxanda gördüm ki, böyük bir avtobus sürətlə yaxınlaşır. Tormoz səsi də gəlmədiyindən anladım ki, qəza qaçılmazdır. İdarə etdiyim ”Mitsubhishi Galant" markalı, Az 99 XZ 549 nömrə nişanlı maşının qarşısında, sağında, solunda maşınlar vardı. Maşını qəzadan yayındıra bilmədim. Hər şey ani oldu. Qəzadan sonra uşağı maşından çıxarıb xəsarət almadığını gördüm. Avtobus idarə etdiyim maşınla yanaşı dayanmış, içində yağ çəllləkləri olan mikroavtobusa çırpılmışdı. Zərbənin qarşısını həmin mikroavtobusdakı yağ dolu çəlləklər aldı, Allah bizi qorudu. Avtobusun sürəti çox idi deyə, bizim maşınlar qarşıdakı maşınlara, onlar da digərlərinə çırpılıb. Ümumilikdə 8 maşına ziyan dəyib. Ən çox mənim idarə etdiyim maşın əzilib. Çünki avtobusun əsas zərbəsi mikroavtobusdan sonra mənim maşınıma dəyib".

**Ceyhun Əmrahovun sözlərinə görə, qəzadan sonra avtobusun sürücüsünün özündə olmadığını seziblər:** “Maşını əzilən digər sürücülər də avtobusun sürücüsünün özündə olmadığını sezdilər, içkili və ya digər bihuşedici maddənin təsiri altında olmasından şübhələndilər. Faktiki, ayaq üstündə güclə dayanırdı, yellənirdi. Avtobus 165 saylı marşrut üzrə hərəkət edib. Marşrutun məsul şəxsi Elməddin adlı şəxs bizə deyir ki, narahat olmayın, sizin ziyanınız ödəniləcək. Sonuncu dəfə müstəntiqin yanında sürücünün içkili olması ehtimalını dedim. Bildirdilər ki, araşdırmışıq, sürücü içkili olmayıb. Sadəcə, 2 növbə ardıcıl işləyib, ona görə yuxulu vəziyyətdə olub, qəza zamanı da sükan arxasında yatıb”.

**Ceyhun Əmrahov sürücünün 2 növbə ardıcıl marşruta buraxılmasının qanunsuzluğun etirafı olduğunu bildirir:** “Əgər sürücü yuxusuz olduğu halda marşrut üzrə avtobusun sükanı arxasına buraxılıbsa və belə bir qəza meydana çıxıbsa, deməli, günahkar təkcə o deyil. Günah həm də onu marşruta buraxanlardadır. Qəzada maşınlar yox, insanlar xəsarət alsaydı, daha ağır nəticələr olsaydı, bu cinayətə görə kim cavab verəcəkdi?”

**Zərərçəkmiş daxili işlər naziri Ramil Usubova, baş prokuror Zakir Qaralova da müraciət ünvanlayıb:** “165 saylı marşrut üzrə sürücüləri xəttə yarıyuxulu buraxırlar və bunu gizlətmirlər də. Şərifzadə küçəsi hərəkətin intensiv olduğu hissədir. Bu cür məsuliyyətsiz yanaşma ilə orada yenə də qəza baş verəcək. Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsində marşrutun məsul şəxsi Elməddin deyir ki, səbr eləyin, maşınınız düzələcək. Müstəntiq də sürücünün qəza zamanı tormoz vurmamasını onun sükan arxasında yatması ilə əlaqələndirir. Deyir ki, ailəsi ilə problemləri olub. Boşanma həddində olub. Qəzadan az əvvəl yoldaşı ilə barışıb, özünü doğrultmaq, ailəsini dolandıracağını sübut etmək üçün gecə-gündüz işləyib, növbədən sonra da işə çıxıb. Ona görə də sükan arxasında yatıb. Sürücü ailəsi ilə barışıb deyə, avtobusla maşınımızın üstündən keçməlidir? Bu adamlar məsuliyyətlərini dərk etmirlər. İçi sərnişinlə dolu avtobus körpünün üstündən aşağı yuvarlansaydı nə olacaqdı? Cənab nazirdən, baş prokurordan xahiş edirəm ki, bu məsələni nəzarətə götürsünlər, bizə dəyən ziyan ödənilsin, 165 saylı marşrutda sahman yaransın”.

**❑ E.HÜSEYNOV,**
**“Yeni Müsavat”**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 111 (7281) 23 may 2019

**Mayın sonlarında ATƏT-in Minsk Qrupunun həmsədrləri - İqor Popov, Stefan Viskonti və Endryu Şefer regona növbəti dəfə səfər edəcəklər. Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Anna Naqdalyan da keçirdiyi brifinqdə məlumatı təsdiqləyib.**






# Həmsədrlər Qarabağa görə narahatdır, yoxsa Ermənistana?

## Vaşinqton görüşü ərəfəsində sürprizlər baş verə bilər; **politoloq:** “Vasitəçilər son baş verənlərə, Ermənistan rəhbərliyinin addımlarına konkret mövqe bildirməlidirlər”

Hələlik nə Azərbaycan, nə Ermənistan tərəfi, nə də həmsədr dövlətlər vasitəçilərin budəfəki səfərinin məqsəd-məramı haqda konkret açıqlama verməyib. Ermənistan XİN-in sözçüsü Anna Naqdalyan bildirib ki, həmsədrlər İrəvan, Xankəndi və Bakıya səfər edəcəklər. “Atılacaq növbəti addımlar bu görüşdə müzakirə olunacaq”, - deyə A. Naqdalyan əlavə edib.

**Xatırladaq ki, bir müddət əvvəl Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov da həmsədrlərin bu ayın sonunda regiona səfərinin gözlənildiyini bildirmişdi.** “Əvvəl də dediyim kimi, həmsədr ölkələrdən biri tərəfindən nazirlər səviyyəsində görüş keçirmək barədə təklif verilmişdi və bu görüşə hazırlıq görülməlidir”, - nazir qeyd edib. Xatırladaq ki, XİN başçıları sonuncu dəfə Brüsseldə bir araya gəlmişdilər. “Şərq Tərəfdaşlığı”nın 10 illiyi münasibətilə keçirilən tədbirlər çərçivəsində Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında da qısamüddətli görüş olmuşdu. Lakin Ermənistan tərəfinin davranışları danışıqlarda irəliləyişin əldə olunduğu barədə fikir söyləməyə əsas yaratmır. Ermənistan hətta rəsmi Bakının təklif etdiyi kimi, əsir və girovların “hamını hamıya” prinsipi ilə dəyişdirilməsinə də “yox” cavabını verdi. Belə görünür ki, Ermənistan hətta Paris və Moskva, o cümlədən Vyana görüşlərində əldə olunmuş razılaşmalara da əməl etmək niyyətində deyil. Hansı ki, xalqların sülhə hazırlanması barədə anlaşmanın əldə olunduğu iddiası var idi.

Növbəti görüşün Vaşinqtonda, liderlər səviyyəsində keçiriləcəyi barədə xəbərlər olsa da, hələlik ABŞ-dan rəsmi açıqlama gəlməyib. Mümkündür ki, həmsədrlərin bölgəyə səfərinin ardınca bu gözləntilərlə bağlı konkretlik yaransın. Lakin Ermənistanda baş verənlər durumu dəyişə bilər.

Qeyd edək ki, hələ ötən yazılarımızda ABŞ-ın ev sahibliyi edəcəyi görüş ərəfəsində Ermənistanın hansısa təxribatlara əl ata biləcəyini təxmin etmişdik. 2016-cı ilin aprelində də ABŞ-da liderlər səviyyəsində görüş planlaşdırıldığı zaman aprel döyüşləri başlamışdı. Bu mənada üçüncü qüvvənin Qarabağ məsələsində təşəbbüsün Vaşinqtonun əlinə keçməməsi üçün hansısa planı işə sala biləcəyi də ehtimal olunur. Xatırladaq ki, əgər Vaşinqton görüşü baş tutsa, bu, 18 ildən sonra ABŞ-ın ev sahibliyi ilə baş tutacaq ilk Qarabağ görüşü olacaq.

Bu mənada Ermənistanda və işğal olunmuş ərazilərdə gərginliyin yaranması təsadüf sayıla bilməz. Qeyd edək ki, qəfildən Qarabağ klanının hərəkətə keçməsi, Paşinyanın iradəsinə zidd olaraq məhkəmənin Robert Köçəryanı həbsdən buraxması, “Daşnaksütyun” Partiyasının mitinq təyin etməsi İrəvanda gərgin atmosfer yaradıb. Belə olan təqdirdə təbii ki, Qarabağla bağlı dramatik situasiyanın yarana biləcəyi şübhə doğurmur. Bəzi müşahidəçilər zənn edir ki, həmsədrlər həm də gərginliklər səbəbindən narahatdırlar və bölgəyə səfər etməklə situasiya ilə yaxından tanış olmaq istəyirlər. Üstəlik, Azərbaycan ordusunun irimiqyaslı hərbi təlim keçirməsi Ermənistanı ciddi şəkildə narahat edir. Bu narahatlıq sözsüz ki, vasitəçilərdə də var.

**Politoloq Arzu Nağıyev də “Yeni Müsavat”a bildirdi ki, həmsədrlərin regiona səfəri ciddi dəyişikliklərə səbəb olmayacaq:** “Bu gün Ermənistanda vəziyyət kifayət qədər gərgindir. ATƏT-in Minsk Qrupu həmsədrlərinin səfəri əsasən bu gərginliklə əlaqədar ola bilər. Çünki Ermənistanda baş verən problemlər Dağlıq Qarabağ ətrafında gərginliyi tətikləyə bilər. Ona görə də həmsədrlərin səfərlərində məqsəd işğalçı ölkədə baş verənlərlə əlaqədar ola bilər”.

**Azərbaycan ordusunun təlimlərinə gəldikdə, ekspert qeyd etdi ki, hərbi təlimlər plana uyğun olaraq keçirilir:** “Hərbi yolla məsələnin həlli heç zaman gündəmdən çıxmayıb”.

**A.Nağıyev həmsədrlərin düşmən təxribatlarına real qiymət verməsini zəruri sayır:** “Biz ATƏT-in Minsk Qrupu həmsədrlərinin mövqeyini gözləyirik. Həmsədrlər son vaxtlar baş verənlərə, Ermənistan rəhbərliyinin addımlarına deklorativ deyil, konkret mövqe bildirməlidirlər”.

**Politoloq işğalçı ölkədəki duruma diqqət çəkərək dedi ki, Ermənistanda yaranmış gərginliyin səbəbi məhkəmənin Köçaryanla bağlı çıxardığı qərardır:** “Təbii ki, bu, nə qədər səbəb kimi göstərilsə də, vasitə idi. Əsas səbəb isə Rusiyanın təsiri altında olan qüvvələrdən istifadə etməklə Paşinyana və onun yürütdüyü siyasətə qarşı atılan addımlardır. Dağlıq Qarabağ və Ermənistan arasında yaradılan gərginlik ilk növbədə kimə sərf edir? Cavab o ola bilər ki, hər iki tərəfə və Rusiyaya. Paşinyan may ayının 9-da Şuşaya səfər edəndən sonra Bako Saakyan və Arkadi Qukasyanın xahişi ilə Köçəryan 2000 dollar girov müqabilində azadlığa çıxır”.

**A.Nağıyev burada oyunun olduğuna da şübhə etmir:** “Bu məgər Paşinyansız həll edilə bilərdi? Əlbəttə ki, yox. Təsir edən amil o qədər güclü oldu ki, o bunu etdi və sonradan görüntü yaratmaq üçün məhkəmə sistemində islahatların keçirilməsinin labüdlüyünü gündəmə gətirdi. Qarışıqlıq yaranan kimi Bako Saakyan Ermənistan parlamentində açıqlama verdi və Paşinyanla hər hansı qarşıdurmanın olmadığını bəyan etdi. Bunlar təbii ki, hamısı bir siyasi gedişdir və əsas məqsəd də vətəndaşları aldatmaqdır. Paşinyan da, digərləri də bilirlər ki, Rusiyaya qarşı tətbiq olunan sanksiyalar müqabilində işğal olunan rayonları saxlamaq çox çətin olacaq və Azərbaycan da getdikcə hərtərəfli təzyiqləri artıracaq. Paşinyan cavabdehliyi tam şəkildə Saakyan və digərlərinin üzərinə qoyur. Saakyan və tərəfdarları isə Paşinyana qarşı kampaniya aparırlar. Bunun qarşılığında Paşinyan 2016-cı ilin aprel məğlubiyyətinin səbəblərini yenidən araşdıracaqları ilə bağlı bəyanat verir və bu da Saakyanı və bir sıra iri məmurları qorxuya salıb. Eyni zamanda 1mart hadisələri ilə bağlı istintaq da yekunlaşmayıb. Paşinyan öz çıxışlarında bildirdi ki, keçmiş hakimiyyətdən qalma konkret qüvvələr var ki, qarşıdurma yaratmaqla Dağlıq Qarabağla Ermənistanı qarşı-qarşıya qoyur və öz cinayətlərini ört-basdır etmək istəyir. Təbii ki, o, Saakyan, Köçəryan, Sərkisyan və digərlərini nəzərdə tutur. Onun dediklərinə görə bunlar belə yolla Qarabağın bir hissəsini Azərbaycana verib bütün məsuliyyəti Paşinyan və onun komandasının üzərinə qoymaq istəyirlər. Artıq ABŞ bu siyasi oyunları təhlil edərək Paşinyana islahatların keçirilməsi ilə bağlı tövsiyələr də ünvanlayıb. Yeni vəziyyət süni də olsa, artıq gərginləşib. Lakin hiss olunur ki, idarə edilir. Təəssüf ki, bütün bunlar heç də münaqişənin həlli demək deyil. Gərginliyin yaranması göstərir ki, bu gün Ermənistan istər iqtisadi, istər siyasi və ya hərbi cəhətdən tam şəkildə tənəzzülə uğrayır. Bu vəziyyət isə Azərbaycana bütün istiqamətlərdə müsbət addımlar atmaq şansı verir”.

**Politoloq Məhəmməd Əsədullazadə isə vəziyyətin gərgin müstəviyə keçə biləcəyini istisna etmir:** “Ermənistanda baş verən siyasi böhran və Qarabağ klanının Moskvanın təlimatı ilə hərəkətə keçməsi baş nazir Nikol Paşinyanın siyasi dayaqlarını zəiflətməklə yanaşı, cəbhədə mümkün təxribatlara yol aça bilər. Bu, Azərbaycan üçün şansdır və yeni ərazilərin azad olunması istiqamətində uğurlu hərbi əməliyyat ola bilər. Qarabağ klanı çalışır ki, cəbhə bölgəsində vəziyyət gərginləşsin, bu da Ermənistan ordusunun məğlubiyyətinə gətirəcək və Paşinyana daxili etirazlar baş qaldıracaq. Azərbaycan Ermənistanda baş verən prosesləri yaxından izləməli və mütləq şəkildə yeni əraziləri azad etməlidir. Ermənistanda baş verən siyasi proseslərlə bağlı danışıqlar da səmərəsiz olacaq. Moskva onsuz da Azərbaycana qarşı təzyiqə getməyəcək”.

Mayın sonunda Minsk Qrupu həmsədrlərinin regiona səfəri gözlənilir. Ermənistanın öz təcavüzkar mövqeyindən bir addım da olsun imtina etmədiyi, işğal edilmiş ərazilərdə yallı oynadıqları, hərbi təlimlər keçirdikləri bir zamanda həmsədrlərin bölgəyə səfəri nəyisə dəyişə bilərmi? Bu səfərlərin hər hansı məna və əhəmiyyəti mövcuddurmu?

**Politoloq Qabil Hüseynli Moderator.az-a məlum səfərlərin görüntü xarakteri daşıdığını qeyd edib:** “Təbii ki, bu səfərlər, sadəcə, görüntü xarakteri daşıyır. Həmsədrlər bununla göstərmək istəyirlər ki, guya Qarabağ probleminin həlli istiqamətində səylərini davam etdirirlər. Bu səfərlərdə məqsəd məhz problemin həlli ilə bağlı səylərin davam etdiyi görüntüsünü yaratmaqdır”.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 111 (7281) 23 may 2019



# "ABŞ-İran qarşıdurmasında Aİ Amerikanın deyil, Tehranın müttəfiqidir"

## Nəzakət Məmmədova: "Avropa İttifaqının vasitəçilik səyləri səmərəli ola bilməz"

**ABŞ-la İran arasında gərginliyin artdığı bir vaxtda Avropa İttifaqı hər iki tərəfi bu gərginliyin daha da artmasının qarşısını almağa çağırıb. Avropa İttifaqı 2015-ci ildə Tehranla əldə olunan nüvə razılığını xilas etməyə çalışır. Vaşinqton isə Avropaya razılıqdan geri çəkilməsi üçün təzyiq göstərir. Avropa İranın küncə sıxıldığından və bu vəziyyətə verəcəyi cavabın region üçün təhlükəli nəticələrinin ola biləcəyindən narahatdır.**

Avropa İttifaqının xarici siyasət idarəsinin sədri Federika Mogerini bildirib ki, biz elə bir mühüm, incə bir zamanda yaşayırıq ki, bizim sərgiləyə biləcəyimiz ən münasib və ən etibarlı mövqe maksimum dərəcədə təmkin göstərib, hərbi gərginliyin qarşısını almaqdır.

Avropa İttifaqı ABŞ-İran münasibətlərinin normallaşması üçün cəhdlər edir. Aİ-nin vasitəçiliyinin ciddi təsirləri ola bilərmi?

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a bildirdi ki, Avropa İttifaqı vasitəçiliyinin həlledici təsiri olacağı inandırıcı deyil. Ən azından ona görə ki, əgər Avropa İttifaqı bu məsələdə təsir imkanlarına malik olsaydı, ABŞ ümumiyyətlə Avropa ölkələrinin də iştirakçısı olduğu nüvə sazişini denonsasiya etməzdi və İrana qarşı sanksiyalar tətbiq edilməzdi: "Bu fakt Avropa diplomatiyasının bu məsələdə zəif olduğunu sübut etdi. Avropa İttifaqı hər nə qədər çalışsa da, bu məsələdə onun gücsüz olduğu ortaya çıxdı. Bu, bir sıra amillərlə bağlıdır. Əsas amillərdən biri ondan ibarətdir ki, ABŞ-İran qarşıdurmasında Avropa İttifaqı Amerikanın deyil, İranın müttəfiqidir, Avropa İttifaqı neytral tərəf deyil və təbii ki, Vaşinqton strateqləri bunu çox gözəl bilir. Belə bir şəraitdə qarşıdurmada tərəf kimi öz maraqları olan Avropa İttifaqının vasitəçilik səyləri səmərəli ola bilməz, çünki vasitəçi, yaxud moderator bitərəf, neytral olmalıdır. Bu, vasitəçilik institutunun əsas şərtidir. Avropa İttifaqı isə bu kriteriyalara uyğun gəlmir".

**Politoloq onu da dedi ki, üstəlik, moderatorun vasitəçilik səylərinin nəticə verməsi üçün onu münaqişə tərəflərinin hər ikisi qəbul etməyə razılaşmalıdır, yaxud özləri ondan vasitəçi olmağı xahiş etməlidir:** "Avropa İttifaqını İran vasitəçi kimi qəbul etsə də, Donald Tramp adminstrasiyası qəbul etmir, hərçənd ki, Altılıq sazişi imzalananda hər iki tərəf buna razı olmuşdu. İndi isə Vaşinqton siyasi-hərbi elitasının böyük bir qismi Avropa İttifaqının vasitəçiliyi ilə imzalanmış nüvə razılaşmasından imtina edib İranı təhdid, güc yolu ilə hədələmə ritorikasına keçib, sanksiyalar tətbiq edilib və Avropa İttifaqının vasitəçiliyinə son qoyulub və ABŞ İranı özünə sərf edən danışıqlar masasına əyləşməyə təhrik etməyənədək bu ritorikasına davam edəcək və Avropa İttifaqına vasitəçi kimi ehtiyac görməyəcək.

Təbii ki, İranda geosiyasi, enerji, investisiya maraqları olan Avropa İttifaqı Vaşinqtona səmimi təsir bağışlamır. Üstəlik, 1979-cu ildə ABŞ və İsraili İrandan uzaqlaşdırmaq planı Avropa İttifaqı tərəfindən həyata keçirilən inqilab yolu ilə başa çatdı və İran Avropa İttifaqının ən yaxın müttəfiqinə çevrildi".

N.Məmmədova vurğuladı ki, bunlardan başqa, Çin və Avropa İttifaqı ABŞ-a qarşı güc tarazlığı yaratmağa çalışan əks qütbdə təmsil olunan müttəfiqlərdir və İranın müttəfiqi Avropa İttifaqının bu məsələdə Vaşinqtona deyil, Tehrana tərəfkeşlik etməsi aydın müşahidə olunur: "İranı investisiya, maliyyə, hətta kəşfiyyat məlumatları ilə təmin edən Avropa İttifaqı şübhəsiz ki, Vaşinqtonun maraqlarına zidd siyasət həyata keçirməklə ona və müttəfiqlərinə-xüsusilə İsrailə qarşı əks cəbhədə Tehranın yanında yer almış olur.

Bundan başqa, İran ABŞ-ın ticarət savaşı apardığı Çinlə Avropa İttifaqı arasında halqa ölkələrdən biridir və Yaxın Şərqdə Türkiyə, Rusiya, Avropa İttifaqı ilə yanaşı Çinlə də daha yaxın münasibətlərə malikdir. Çinin dünya əhalisinin 63 faizinin yaşadığı "Bir kəmər, bir yol" meqalayihəsini dəstəkləyən Avropa İttifaqı ilə yanaşı İran da bu məsələdə Vaşinqton qarşısında geri çəkilməyərək zidd mövqedə dayanır və həm Çinin tərəfdaşı, həm də Yaxın Şərqdə İsrail və Səudiyyə Ərəbistanı kimi Amerika müttəfiqlərinə qarşı mübarizə aparan İranla istənilən yaxın müttəfiq, xüsusilə Avropa İttifaqı Vaşinqtonun nəzərində nəinki müttəfiq statusunu itirib, hətta etibarlı vasitəçi olmağa layiq deyil".

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# İstanbulda həlledici günə 1 ay qaldı

## "İstanbul AKP üçün həyati və siyasi gələcək məsələsidir" - politoloq

**İstanbulda təkrar bələdiyyə başqanı seçkisinə tam bir ay vaxt qaldı. İyunun 23-də keçiriləcək seçkilərdə hakim Ədalət və İnkişaf Partiyasından "Cümhur" İttifaqının namizədi Binəli Yıldırım, Cümhuriyyət Xalq Partiyasından "Millət" İttifaqının namizədi Əkrəm İmamoğlu mübarizə aparır. Hazırda hər iki tərəf bütün gücü ilə seçki kampaniyası aparır. Hazırkı vəziyyəti təhlil etsək və durum bu şəkildə davam edərsə, seçkinin nəticələrinin necə olacağı gözlənilir?**

**Politoloq Əhəd Məmmədli** "Yeni Müsavat"a bildirdi ki, indiki vəziyyəti təhlil edəndə iyunun 23 İstanbulda keçiriləcək təkrar bələdiyyə başqanı seçkilərində "Cümhur" İttifaqın namizədi Binəli Yıldırımın qalib qalib gələcəyi ehtimalı nisbətən yüksəkdir: "Təvazökarlıqdan uzaq olsa da indiyə qədər Türkiyə ilə bağlı, istər "Evet-Hayı" referendumu ilə bağlı, istər prezident seçkiləri ilə bağlı proqnozlarım doğru çıxıb. İstanbulda da yenidən bələdiyyə seçkilərinin keçiriləcəyi haqda fikrimi bildirmişdim. Bu proqnozum da düz çıxdı. İndi də deyirəm ki, İstanbulda keçiriləcək təkrar bələdiyyə başqanı seçkilərində "Cümhur" İttifaqın namizədi, AK Partiyalı Binəli Yıldırım qalib gələcək. "Millət" İttifaqının namizədi Əkrəm İmamoğlu da Məhərrəm İncə kimi hakim partiyadan olan rəqibini qələbəsi münasibətilə təbrik edəcək".

**Politoloq qeyd etdi ki, hakim partiya birinci seçkilərdə buraxılan səhvlər, boşluqlar üzərində işlər aparır. Seçicilərin siyahıları yenidən nəzərdən keçirilir. AK Partiya müşahidəçiləri üstündə yenidən işləyir. Bu seçki marafonunda**



**AK Partiya müxalifətdəki rəqibini ideoloji müstəvidə öz siyasi meydanına çəkib:** "Siyasətdə belədir, opponentini öz meydanında rəqabətə çəkən fərd və təşkilat mütləq şəkildə qalib gəlir".

**Politoloq Məhəmməd Əsədullazadə isə bildirdi ki, Türkiyədə keçirilən 31 mart bələdiyyə seçkilərində CHP-nin böyük şəhərlərdə xüsusi ilə İstanbulda qalib gəlməsi AKP üçün gözlənilməz sürpriz oldu. AKP CHP-nin İstnabulda qələbəsini qəti şəkildə qəbul etmədi. Baxmayaraq ki, demokrtaiyada bir səslə qalib gəlmək mümkündür. CHP-namizədi Əkrəm İmamaoğlunun apardığı seçki taktikisası, həmçinin istanbulluların AK Partidən artıq yenilik gözləməmələri hakim partiyanın namizədlərinin böyük şəhərlərdə məğlubiyyətinə gətirdi. Təkrar seçkidə də səslərin çoxunun İmamoğluna veriləcəyi gözlənilir:** "AKP-nin Binəli Yıldırımı namizəd etməklə, ilk başdan məğlubiyyətə gətirəcəyini düşünməli idilər. Yıldırım yenə də namizəddir. CHP-nin namizədinin İstanbulda keçirilən növbəti seçkilərdə də qalib gəlməsi mümkündür. Əkrəm İmamoğlunun bələdiyyə başqanlığının ləğv edilməsi faktının da seçkilərdə onun səsini birə-beş artıracağı gözlənilir. Sadəcə, AKP iqtidarı İstanbulda kim qalib gəlsə, Türkiyəni o qazanacaq düşüncəsi ilə hərəkət edərək uğurlu bir seçki prosesini ləğv etdi. CHP proseslərdən ona görə narahatdır ki, AKP inzibati yollarla seçkiləri öz xeyrinə dəyişə bilər. Qeyd edim ki, müxalifət partiyası heç vaxt seçkidə saxtakarlıq edə bilməz. Çünki bütün resurslar hakimiyyətin əlindədir. Ona görə də düşünürəm ki, İstanbul seçkilərində saxtakarlıq olmamışdı. Sadəcə, AKP meqapolis olan İstanbulu əldən verməmək üçün bu seçkilərin ləğvinə nail oldu. İndiki durumda proseslər heç də hakim partiyanın xeyrinə deyil. Təkrar seçkilər AKP daxilində fikir ayrılıqlarına gətirib çıxarıb. Prezident Ərdoğan partiyasının növbəti dəfə qalib gəlməsi üçün təkbaşına mübarizə aparır. İstanbul AKP üçün həyati və siyasi gələcək məsələsidir. İstanbulda 23 iyun seçkilərində hiylə olmasa, Əkrəm İmamaoğlu yenidən qalib gələ bilər. Hesab edirəm ki, AKP çalışacaq ki, nəticələri öz xeyrinə dəyişsin".

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# 4 milyona yaxın Venesuela qaçqını dünyaya səpələnir

## BMT dünyanı onlara sığınacaq verməyə səslədi; Maduro isə "Visa", "Mastercard" sistemlərindən imtina edir...

**BMT-nin Qaçqınlar Agentliyi dünya ölkələrini Venesueladan qaçanları qəbul etməyə çağıraraq, onların əksəriyyətinin beynəlxalq qaçqın yardımına ehtiyacı olduğunu bildirib.**

"Yeni Müsavat" xəbər verir ki, Cenevrədə keçirilən brifinqdə sözçü Liz Trossel Venesuelada siyasi, insan haqları durumunun və humanitar vəziyyətin ağırlaşdığını deyib.

Onun bildirdiyinə görə, indiyədək ölkəni 3.7 milyon insan tərk edib. Onların 460 mini əsasən qonşu ölkələr olmaqla, siyasi sığınacaq üçün müraciətlər edib.

Agentlik şəxslərin müəyyən edilməsi prosesinin ağırlığına görə ölkələrdən sığınacaq istəyən venesuelalıların qrup şəklində təsbit edilməsini istəyir.

Bildirilir ki, venesuelalılar



qanuni statuslarından asılı olmayaraq geri qaytarılmamalıdır.

Dünyanın qaçqın probleminin daha da dərinləşdiyini nəzərə alsaq, indi venesuelalıların axını vəziyyəti bir qədər də çətinləşdirəcək.

Əsasən Avropa ölkələri, xüsusən Almaniya qaçqın qəbul edir. Şimali Afrika, ərəb ölkələri, xüsusilə Suriya, İraq, Əfqanıstan, Somali qaçqınları Avropanı bürüyüb. Belə vaxtda Venesueladan da qaçqın qəbul etmək ciddi böhrana səbəb ola bilər.

Bu arada rusiyalı siyasi ekspert Vladimir Fitin deyib ki, Türkiyə Venesueladakı böhranın əvvəlindən prezident Nikolas Maduroya dəstək verib.

O, Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlunun Venesuelaya hər cür müdaxiləyə qarşı olduqları barədə açıqlamasını şərh edib.

**Fitin vurğulayıb ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Maduroya "Dik dur, qardaşım" deyib:** "Türkiyə ABŞ-ın bir çox məsələdə təzyiqinə baxmayaraq, Venesuela ilə bağlı mövqeyindən dönmədi. Türkiyə iqtisadiyyatı daxil, bütün məsələlərdə öz siyasətini tətbiq edir".

Venesuelaya gəlincə, ölkənin Mərkəzi Bankı və Venesuela Bank Sektorunun İdarəsi İnstitutu özünün ödəniş sistemini inkişaf etdirməyi planlaşdırır.

Məlumata görə, 2020-ci il yanvarın sonuna qədər rəsmi Karakas "Visa", "Mastercard" və "Maestro" ödəniş sistemləri ilə əməkdaşlığını tam dayandırmaq niyyətindədir. Karakasın yeni ödəniş sistemini məhz ABŞ sanksiyalarından yayınmaq üçün yaradacağı bildirilib.

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 111 (7281) 23 may 2019

# Kiçik və orta sahibkarlığın problemləri və çıxış yolu

## Agentlik: "Kiçik və orta biznesə hər cür dəstək verilir"

**Bütün dünyada iqtisadiyyatın inkişaf lokomotivi olaraq kiçik və orta sahibkarlıq (KOS) qəbul edilir. KOS iqtisadi fəallığın, məşğulluğun təminatında, ən əsası isə orta təbəqənin formalaşmasında həlledici söz sahibi hesab olunur. Bu baxımdan, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı çoxdan zərurətə çevrilib.**

Ölkə hökuməti bu sahədə inkişafa nail olmaq üçün müxtəlif addımlar atır. Prezidentin fərmanı ilə 2017-ci ildə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılıb. Mikro, kiçik və orta biznesin (KOB) inkişafının dəstəklənməsi, ölkə iqtisadiyyatında kiçik və orta biznesin (KOB) rolunun artırılması, onların maraqlarının müdafiəsi, KOB-lara vahid məkan prinsipi ilə xidmətlərin göstərilməsi, dövlət və özəl qurumların bu sahədə fəaliyyətinin əlaqələndirilməsi qurumun başlıca fəaliyyət istiqamətləridir. Bir sözlə, Agentlik kiçik və orta biznesin yaradılmasından başlayaraq, onun fəaliyyətinin bütün mərhələlərində mövcud dövlət dəstəyi mexanizmləri və göstərdiyi xidmətlər çərçivəsində KOB-lara dəstək olur, dövlət qurumları ilə KOB subyektləri arasında körpü rolunu oynayır.

### Yeni Agentlik KOB üçün nə edir?

Agentlikdən "Yeni Müsavat"a verilən məlumata görə, artıq bir sıra dəstək mexanizmləri sahibkarların xidmətinə verilib, müxtəlif layihələr həyata keçirilib: "Hazırda ölkə üzrə yaradılmaqda olan "Kiçik və Orta Biznesin Dostu", qısaca desək, "KOB Dostu" belə mexanizmlərdəndir. Hazırda ölkənin 12 rayon və şəhərində 14 "KOB Dostu" mövcud dövlət dəstəyi mexanizmləri və Agentliyin göstərdiyi dəstək tədbirləri çərçivəsində sahibkarlara xidmət göstərir. KOB dostları fəaliyyət göstərdiyi yerlərdə mikro, kiçik və orta sahibkarlara onların təşəbbüslərinin, potensial imkanlarının müəyyən edilməsi və reallaşdırılması, yeni KOB subyektlərinin yaradılması və inkişafının bütün mərhələlərində, eləcə də sahibkarların hüquqlarının müdafiəsi istiqamətində dəstək olur. Ümumilikdə ölkənin 10 iqtisadi rayonu üzrə 60 "KOB Dostu"ndan ibarət şəbəkənin yaradılması nəzərdə tutulur".

**KOB-lar üçün yeni dəstək mexanizmlərinin və modellərinin yaradılması ilə yanaşı, Agentliyin fəaliyyətinin digər istiqaməti müvafiq sahədə qanunvericilik aktlarının təkmilləşdirilməsi prosesində KOB maraqları baxımından çıxış etməkdir:** "Bu sahədə Agentliyin təklifləri əsasında "Kiçik və orta sahibkarlığın inkişafı haqqında" Qanun layihəsi, KOB-lara müxtəlif dəstək tədbirlərinin göstərilməsini nəzərdə tutan normativ hüquqi aktların layihələri hazırlanıb, Vergi Məcəlləsinə KOB-lar üçün bir sıra yeni güzəştləri nəzərdə tutan dəyişiklikər edilib. Sahibkarlıq subyektlərinin yeni bölgüsü meyarlarının təsdiq olunması, KOB-ların kommunal xidmətlərə qoşulma prosedurlarının sadələşdirilməsi, dövlət satınalmaları haqqında qanunvericiliyə mütərəqqi dəyişikliklərin edilməsi də KOB sektorunun inkişafı istiqamətində atılmış önəmli addımlardandır".

Bundan əlavə, KOBİA müxtəlif sərgilərdə mikro və kiçik sahibkarların iştirakına dəstək olur. Eyni zamanda KOBİA-nın dəstəyi və təşkilatçılığı ilə "Azərbaycanın biznes icti-maiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə proqramı" çərçivəsində sahibkar və menecerlər Almaniyaya təlim və istehsal müəssisələrində təcrübəyə göndərilir: "İndiyədək 402 sahibkar və menecer bu proqramdan faydalanıb. Növbəti qrup bu ilin iyun ayında Almaniyaya səfər edəcək".

**Agentlikdən bildirildiyinə görə, dövlət başçısının Agentliyin fəaliyyətinin təmin edilməsi ilə bağlı fərmanında KOB-ların inkişafı üçün bir sıra yeni mexanizmlərin formalaşdırılması nəzərdə tutulur:** "Bunlardan biri də kiçik və orta biznes evlərinin (KOB evləri) və "e-KOB evi" portalının yaradılmasıdır. KOB evlərində sahibkarlıq subyektləri öz bizneslərinin planlamasından başlayaraq biznesin idarə edilməsinin bütün mərhələlərində ehtiyac duyulan xidmətləri əldə edə biləcəklər. Burada biznesi planla, biznesə başla, biznesi inkişaf etdir kimi 5 biznes prosesi üzrə 30-dan çox dövlət qurumunun 100-dən artıq "G2B" (dövlət-biznes) və özəl qurumların 1000-dən artıq "B2B" (biznes-biznes) xidmətləri əlaqəli şəkildə təşkil olunacaqdır. KOB evlərində bank, sığorta, notariat, məsləhət, hüquqi yardım və sahibkarların biznes fəaliyyəti çərçivəsində ehtiyac duyduğu digər xidmətlər təklif ediləcəkdir. Hazırda Bakı şəhərində (Nərimanov rayonu) ilk KOB evinin yaradılması istiqamətində tədbirlər görülür. Həmçinin hazırda elektron formada vahid platforma üzərindən xidmətlərin göstərilməsini təmin edəcək "e-KOB evi" portalının yaradılması istiqamətində də müvafiq işlər aparılır".

**Azərbaycanda hazırda mikro, kiçik və orta sahibkarlıq subyektləri dövlətin bir sıra dəstək mexanizmlərindən, o cümlədən güzəştli kreditlərdən istifadə edir. Bu kreditlər İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitləri hesabına verilir:** "KOB-ların maliyyə resurslarına çıxışının genişləndirilməsi və onların yüksək keyfiyyətli maliyyə xidmətləri ilə təmin edilməsi digər strateji inkişaf istiqamətləri ilə yanaşı, prioritetlərimiz sırasındadır. Agentlik bu istiqamətdə ən qabaqcıl beynəlxalq təcrübəni öyrənir. KOB subyektlərinin maliyyələşməsi ilə əlaqədar mövcud mexanizmlərin optimallaşdırılması, mövcud mexanizmlərə əlavə olaraq yeni və innovativ maliyyə mexanizmlərinin hazırlanması üzərində iş aparılır. Həmçinin hazırda əsas hədəflərdən biri KOB inkişaf fondlarının yaradılmasıdır. Bu fondların əsas məqsədi sahibkarların güzəştli maliyyə resurslarından istifadə imkanlarını genişləndirən təşəbbüslər gerçəkləşdirmək, startapların və KOB subyektlərinin maliyyə resurslarına (kreditlərə, investisiyalara, qrantlara) çıxış imkanlarının genişləndirilməsinə dəstək verməkdir. Yeri gəlmişkən, KOB subyektlərinin maliyyə resurslarına çıxışlarının genişləndirilməsi, onların maliyyə savadlılığının artırılması məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası və Azərbaycan Banklar Assosiasiyasının birgə əməkdaşlığı nəzərdə tutulur. Bu məqsədlə müvafiq qurumlar arasında qarşılıqlı əməkdaşlığa dair Niyyət Protokolu da imzalanıb".

Həmçinin fəaliyyət göstərdiyi qısa müddət ərzində Agentlik mikro, kiçik və orta sahibkarlara informasiya, məsləhət, təlim-tədris, dövlət strukturları ilə əlaqələndirmə kimi istiqamətlərdə müxtəlif xidmətlər göstərib, dəstək tədbirləri həyata keçirib, sahibkarların hüquq və maraqlarının müdafiəsi istiqamətində zəruri işlər görüb.



### Natiq Cəfərli: "Kreditlərin bahalığı və məmur oliqarxiyası iqtisadi addımların effektini azaldır"

### İqtisadi addımlar idarəetmə islahatları ilə tamamlanmalıdır

**İqtisadçı-ekspert Natiq Cəfərlinin "Yeni Müsavat"a bildirdiyinə görə, iqtisadi sahədə həyata keçirilən tədbirlərlə yanaşı, KOB-ların inkişafı üçün idarəetmədə addımlar atılmalıdır:** "İdarəetmədə bir dəyişiklik olmadığına görə iqtisadiyyatda verilən qərarların effektivliyi aşağı olur. Bu gün kiçik və orta sahibkarlığa ən böyük maneələrdən biri yerli icra strukturlarının müdaxilələridir. Bu, kiçik və orta sahibkarlığın inkişafında əsas institutsional əngəllərdən biridir. Bu vəziyyətin aradan qaldırılması üçün əməli tədbirlər görülməli, ciddi cəzalandırma mexanizmləri tətbiq olunmalıdır. Qanunvericilik sahəsində isə vergi və gömrük qanunvericiliyinin təkmilləşdirilməsinə ehtiyac var. Birinci növbədə, oyun qaydalarının tez-tez dəyişdirilməsi təcrübəsinə son qoyulmalıdır. Belə ki, son 3 ildə vergi qanunvericiliyinə 400-dən çox əlavə və dəyişiklik həyata keçirilib. Bu, kiçik və orta sahibkarların fəaliyyətinə ciddi çətinliklər yaradır. Hər yeni qaydaya adaptasiya olmaq xeyli vaxt aparır, eyni zamanda sahibkarlar uzunmüddətli dövr üçün öz bizneslərinin planlaşmasını apara bilmirlər".

**Ekspertin fikrincə, Azərbaycanda gömrük rüsumlarında konkretləşmə aparılmalıdır:** "Gömrük rüsumları 0-15 faiz koridorunda dəyişir. Bu koridorun tamamilə qısaldılmasına, 1 və ya 2 pilləli rüsum tətbiqinə keçilməsinə ehtiyac var. İnstitutsional və iqtisadi problemlərdən biri də biznesin, xüsusilə də kiçik və orta sahibkarlığın uzunmüddətli və aşağı faizli kreditlərə çıxış imkanlarının məhdud olmasıdır. Bu gün Azərbaycanda kredit faizləri çox yüksəkdir. Eyni zamanda kredit şərtləri də ağırdır. Belə vəziyyətdə kiçik və orta sahibkarlar uzunmüddətli planlar qura bilmirlər. Kredit ən yaxşı halda 5 illiyə verilir, faizlər yüksək olur, nəticədə aylıq ödənişlər böyük məbləğlərdə ifadə olunur. Xüsusilə aqrar sektorda çalışan sahibkarların belə qısamüddətli və bahalı kreditlərlə hansısa biznes layihəsini həyata keçirməsi mümkün deyil. Məsələn, çayçılıqla məşğul olan iş adamı çay kollarını əkdiyi sahədən 5-6 ildən sonra məhsul götürə bildiyi halda, kredit ona ən çoxu 5 illiyə təklif olunur. Bu, əlbəttə ki, heç bir halda əlverişli sayıla bilməz. Bunun qarşısını almaq üçün kiçik və orta sahibkarların uzunmüddətli və daha aşağı faizli kreditlərə əlçatanlığı artırılmalıdır. Belə sahibkarlar üçün xüsusi kredit rejimləri tətbiq oluna bilər".

**Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı qarşısında duran əsas maneələrdən biri də inhisarçılıqdır:** "İnhisarçılıq bu gün bütövlükdə ölkə iqtisadiyyatının inkişafı qarşısında ən böyük maneələrdən biridir. Məmurların biznesin çulğalaşması Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına mane olur. Müxtəlif sahələri nəzarətdə saxlayan oliqarxiya bazarlara kiçik və orta oyunçuların daxil olmasına imkan vermir. Azərbaycanda bununla bağlı nümunələr yüzlərlədir. Buna görə də məmurların biznesdən uzaqlaşdırılması lazımdır. Neçə illərdir biz bunu səsləndiririk. Məmurlar biznesdən qopmasa, ayrılmasa, iqtisadiyyatın istənilən sahəsində inkişaf mümkün olmayacaq".

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 84 (7254) 20 aprel 2019



## "Türkiyə S-400 raketlərini alacaq, bu anlaşmadan geri addım atmayacaq"

### Elxan Şahinoğlu: "Günah ABŞ-ın özündədir, vaxtilə Türkiyənin istədiyi raketləri ona satmaq lazım idi"

**ABŞ ilə Türkiyə arasında diplomatik və siyasi gərginlik davam edir. Vaşinqton Türkiyənin Rusiyadan S-400 hava hücumundan müdafiə sistemi almasını qəbul edə bilmir. Buna görə də rəsmi Vaşinqton Ankaranı müxtəlif sanksiyalarla təhdid edir. Ancaq Ankara dəfələrlə bəyan edib ki, Moskva ilə əldə olunmuş anlaşmadan imtina etmək niyyətində deyil. Hətta Türkiyə bu məsələni müzakirə etməyi belə mənasız sayır.**

ABŞ hökuməti isə Türkiyəyə Rusiya "S-400" zenit-raket komplekslərindən imtina etməsi üçün iki həftə vaxt verib. Bu barədə öz mənbələrinə istinadən CNBC telekanalı məlumat yayıb. Həmin məlumatda bildirilir ki, Ankara iki həftə ərzində Moskva ilə sövdələşməni pozmalı və Amerikanın "Patriot" raket əleyhinə müdafiə sistemlərini almalıdır. Əks təqdirdə, ABŞ Türkiyəni "F-35" proqramından çıxaracaq. (Report) Amerika hökuməti Türkiyəni vəd olunmuş yüzlərlə qırıcıdan məhrum etməklə yanaşı, ona qarşı sanksiyalar tətbiq etməklə də hədələyib. Eyni zamanda bu, NATO tərəfindən də "reaksiyaya" səbəb ola bilər.

Digər məlumata görə, Türkiyə iyunun əvvəllərində Rusiyadan S-400 raketlərinin alınması ilə bağlı yekun qərarını verməlidir. Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, əgər Ankara ABŞ-dan oxşar raket sistemlərini almaqdan imtina edərsə, Qərbin sanksiyaları ilə üzləşəcək. Vaşinqton Türkiyədən S-400 raketlərindən imtina etməsini və onun əvəzində Patriot raketlərini almağı tələb edir. Əgər Ankara bu addımdan qaçsa, Vaşinqton 5-ci nəsil F-35 qırıcı təyyarələrin Türkiyə ilə birgə istehsalından və 100 ədəd F-35 təyyarəsini satmaqdan imtina edəcək. Paralel olaraq, Ankara ABŞ-ın sanksiyaları və NATO ilə ciddi problemlərlə üzləşəcək. Məlumata görə, bu, Dövlət Departamentinin Türkiyəyə son təklifidir.

"NATO ölkələri konkret standartlar üzrə hərbi texnika almalıdır. Amma Rusiyadan alınacaq S-400 raketləri bu standartlara daxil deyil. Əgər Türkiyə S-400 raketlərini almaq planlarını dəyişməsə, çox neqativ nəticələrlə üzləşəcək"- deyə Dövlət Departamentinin adının anonim qalmasını istəyən nümayəndəsi bildirib.

Qeyd edək ki, 2017-ci ilin sonlarında Ankara və Moskva S-400 raketlərinin 4 divizionunun alınması barədə saziş imzalamışdı. Dəyəri 2,5 milyard dollar olan müqavilə ABŞ və NATO ölkələrinin ciddi narazılığına səbəb olmuşdu.

Bu arada Ankaranın ABŞ-la bağlı yumşaq siyasəti diqqət çəkir. Türkiyə idxal etdiyi ABŞ istehsallı 22 məhsula tətbiq olunan gömrük vergisində endirim edib.

Publika.az xəbər verir ki, sözügedən gömrük vergisi yarıbayarı endirilib. Qərar Türkiyənin rəsmi qəzetində yayımlanıb. Siyahıda meyvə, tütün, kosmetika məhsulları, spirtli içki, avtomobil, kağız məhsulları yer alıb. Qeyd edək ki, ötən həftə ABŞ Türkiyə istehsalı polad və aliminium məhsullarına tətbiq olunan vergini 50% endirmişdi.

Son məlumata görə, Türkiyə "S-400" Zenit-Raket Sistemi ilə bağlı təlim almaq üçün Rusiyaya hərbçi göndərib. "Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Türkiyənin müdafiə naziri Hulusi Akar bildirib. Onun sözlərinə görə, bir neçə ay davam edəcək təlimlər artıq başlayıb.

Bu arada İtaliyanın keçmiş baş naziri Silvio Berluskoni maraqlı açıqlama verib. ABŞ-Türkiyə münasibətlərindəki gərginliyin fonunda Ankara ilə yaxınlaşmanı zəruri sayan Berluskonu "yaxşı polis" funksiyasını yerinə yetirməyə çalışıb və bəyan edib ki, Avropa Birliyi Türkiyəni yenidən qazanmalıdır. Onun sözlərinə görə, Avropa Birliyi xarici siyasətdə ciddi səhvlər edir və ABŞ-ın yanlış qərarları və ticarət savaşı qarşısında gücsüzdür.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında Vaşinqtonun Türkiyəyə təzyiqlərinin hansı sonluqla bitəcəyindən danışdı:** "ABŞ düşünür ki, Türkiyə S-400 raketlərini alsa, bu, NATO-ya, ABŞ hərbisinə təhlükə yarada bilər. Amma məsələnin digər tərəfi ondan ibarətdir ki, ABŞ Rusiya-Türkiyə yaxınlaşmasından da narahatdır. Halbuki günah özündədir, vaxtilə Türkiyənin istədiyi raketləri ona satmaq lazım idi".

**E.Şahinoğlu şübhə etmir ki, Türkiyə S-400 raketlərini alacaq, bu anlaşmadan geri addım atmayacaq:** "Geri addım atsa, Rusiya ilə münasibətləri pozular. Düşünürəm ki, ABŞ da bir müddət sonra Türkiyənin S-400 raketlərini almasını qəbul etmək məcburiyyətində qalacaq, yəni başqa çarəsi olmayacaq. Sadəcə, bunun üçün zaman lazımdır. Məsələn, ABŞ Türkiyəyə F-35 təyyarələrini verməyəcəyini də demişdi. Amma son məlumatlara görə, artıq 5 təyyarə Türkiyədədir. Bu da o deməkdir ki, S-400 raketlərinə görə Türkiyə-Amerika münasibətləri yumşala və normallaşa bilər".

❑ **Cavìd TURAN,**
**"Yenì Müsavat"**

# Amerikanın Yaxın Şərqə hərbi müdaxiləsinin acı nəticələri

### Vaşinqton 17 il mübarizə apardıqdan sonra Talibanla bir masa arxasında əyləşərək anlaşma əldə etməyə çalışır, Əfqanıstan isə hələ də özünə gəlməyib




**"Əş-Şərq əl-Avsat" qəzetinin İrana hərbi müdaxilə ilə bağlı İraqdan hazırladığı reportajda maraqlı bir detal vardı. Bağdadda sadə sakinlər ABŞ-ın ötən həftə Fars körfəzinə göndərdiyi "USS Abraham Linkoln" aviadaşıyıcısının onlara birinci körfəz müharibəsini xatırlatdığını deyiblər.**

ABŞ-ın İrana müdaxiləsi gündəmə gələndə bir qayda olaraq Vaşinqtonun bölgədəki hərbi fəaliyyətləri xatırlanır. Çünki ortada ötən illərin acı dərsləri var. Yeri gəlmişkən, adıçəkilən gəmi 1991-ci ildə birinci körfəz müharibəsində və eləcə də 2003-cü il İraqın işğalında iştirak edib. Birinci körfəz savaşında bu gəmidən Bağdad bombalanıb. Acı xatirələrdir.

İndi isə bölgə yeni müharibə ərəfəsindədir. Doğrudur, indi təkzib olunur. Amma hər halda, münasibətlər həddən artıq gərgindir və ABŞ günü-gündən körfəzi silahlandırmaqda davam edir. Ancaq hər kəs anlayır ki, İranla müharibə elə də asan olmayacaq. Amerikada belə bir çox insan bu savaşa qarşı ayaqlanıb. Belə bir müharibənin olması isə Yaxın Şərqə ağır fəlakət vəd edir. Həm də ortada Amerika müdaxiləsinin acı nəticələri var.

Bir qayda olaraq ABŞ-ın regiondakı savaşları dedikdə yada Əfqanıstan və İraqın işğalı düşür. Çünki bu hadisələr daha yaxın zamanda və acı nəticələr doğurmuş hadisələrdir. Və nə qədər acı da olsa bu müharibələrin hər ikisi hələ də başa çatmayıb. Vaşinqton 17 il mübarizə apardıqdan sonra Talibanla bir masa arxasında əyləşərək anlaşma əldə etməyə çalışır. Əfqanıstan isə hələ də özünə gəlməyib və gəlməsi də çətin olacaq, belə görünür.

Halbuki ABŞ ordusu 2001-ci ilin oktyabrında, 11 sentyabrdan 2 həftə sonra terrorizmin kökünü qazımaq üçün Əfqanıstana daxil olmuşdu. 2001-ci il oktyabrın 7-də ABŞ ordusu Əfqanıstanı bombalamağa başlayıb, oktyabrın 10-da paytaxt Kabil ələ keçirildi. Amma müharibə uzandı və 2011-ci ildə amerikalılar Əfqanıstana hücumun əsas bəhanəsi olan "Əl-Qaidə" lideri Usamə bin Ladeni Pakistanda tapıb öldürsələr də "əfqan missiyası" bitmədi.

2014-cü ildə isə prezident Obama ABŞ-ın Əfqanıstandakı hərbi missiyasının başa çatdığını bəyan etdi. Amerika tarixinin ən uzunmüddətli hərbi missiyası hesab olunan Əfqanıstan müharibəsi 13 il davam etdi. Ancaq başa çatmadı - baxmayaraq ki, 2014-cü ilin payızında Kabildə keçirilən mərasimdə Beynəlxalq Təhlükəsizliyə Yardım qüvvələrinin komandiri müharibənin başa çatdığını elan edərək koalisiyanın bayrağını rəsmi şəkildə endirib. Hazırda Əfqanıstanda 14 min nəfərlik ABŞ hərbi kontingenti var. Eyni zamanda bura beynəlxalq qüvvələr (Azərbaycandan da hərbi birləşmə var) və eləcə də ABŞ hökumətinin müqavilәli muzdluları da daxil olmaqla, bəzi məlumatlara görə, 60 mindən çox hərbi qüvvə hələ də Əfqanıstanda "Taliban" və İŞİD-ə qarşı mübarizə aparır.

Amerikalıların rəsmi olaraq 13 illik əfqan missiyası 1 trilyon dollar, 2200-dən çox ölü və on minlərlə yaralı hərbçi ilə yekunlaşıb. Ancaq indi artıq Əfqanıstanda yalnız "Taliban" deyil, həm də İŞİD var. Hətta Trampın son qərarından sonra ABŞ ordusunun hələ 7 minlik birləşməsi Əfqanıstanda qalacaq. Əfqanıstanın nə zaman sabit ölkəyə çevrilməsi isə üfüqdə görünmür.

ABŞ ordusunun "ayağı dəyən" ölkələrdən biri də İraqdır. 2003-cü il martın 17-də ABŞ və Britaniya İraq lideri Səddam Hüseynə təslim olması üçün 48 saat vaxt verdi. Verilən vaxt tamam olduqda isə ABŞ və Britaniya ordusunun (ümumilikdə 400 min nəfərə yaxın hərbçi) rəhbərlik etdiyi 15 ölkədən ibarət koalisiya İraqa hücum etdi.

Səddam Hüseyn ordusu müttəfiq qüvvələrinə 3 həftə tab gətirə bildi. 20 gündən sonra, aprelin 9-da artıq ABŞ tankların Bağdadın mərkəzinə daxil olmuşdu. 2003-cü il mayın 1-də isə ABŞ prezidenti Corc Buş müharibənin başa çatdığını elan etdi. Ancaq amerikalılar 2011-ci il dekabrın 15-dək rəsmən İraqda qalmalı oldular. Hazırda İraqda rəsmi olaraq ABŞ-ın 5200 nəfər hərbçisi var. Ötən bazar günü isə Bağdadda "yaşıl zona" adlı ərazidə yerləşən ABŞ səfirliyi raket atəşinə tutuldu. İraqın bərpa olunub əvvəlki vəziyyətinə qayıtması üçün 100 milyarddan çox pul lazımdır.

İraq müharibəsinin itkiləri ilə bağlı fərqli rəqəmlər söylənilir. Amerika mərkəzli araşdırma qurumu 10 illik savaş dövründə 122 min iraqlının öldüyünü, 135 min nəfərin isə yaralandığını açıqlayıb. Ancaq müstəqil araşdırma mərkəzləri 600, bəziləri isə 1 milyon iraqlının müharibədə qurban getdiyini təxmin edir.

Rəsmi rəqəmlərə əsasən 10 illik işğal dövründə amerikalılar 4475 (bəzi rəqəmlərə görə, 4487) nəfər itirib, 32 min nəfər isə yaralanıb. Müttəfiq ölkələrdən ölənlərin sayı isə 318 nəfər olub. Amerikalılar İraqda ən böyük itkini işğal zamanı, yəni 2003-cü ildə deyil, 2004-2007-ci illərdə partizan müharibələri zamanı veriblər. Ən böyük itkiləri isə kənardan idarə olunan partlayıcılar törədib. Məhz İraq işğalı zamanı kənardan idarə olunan bombalar, minalanmış avtomobillərlə terror aktları dəhşətli şəkildə geniş yayıldı, demək olar ki, hər gün ölkənin fərqli bölgəsində işğal qüvvələrinə, eləcə də dinc əhaliyə qarşı terror həyata keçirilirdi. Məsələn, ABŞ-ın İraqdakı itkilərinin 55-65 faizi məhz kənardan idarə olunan bombaların partlaması nəticəsində qeydə alınıb.

Bundan başqa, 2006-2007-ci illərdə "Əl-Qaidə"nin İraqda peyda olmasından sonra məzhəb düşmənçiliyinin alovlanması nəticəsində toqquşmalar baş verdi və bu motivlə təxmini məlumatlara görə, 35 min insan öldürülüb. Terror və silahlı hücumlar nəticəsində İraq təhlükəsizlik qüvvələri işğal dövründə 10 mindən artıq əməkdaşını itirib.

Bundan başqa, ABŞ ordusu NATO missiyası tərkibində 2011-ci ilin martından etibarən Liviyada Müəmmar Qəzzafi rejimini bombalayıb. Doğrudur, amerikalılar kiçik antiterror əməliyyatları istisna olmaqla İraq və Əfqanıstandakı kimi Liviyaya genişmiqyaslı hərbi müdaxilə etmədilər. Ancaq Liviyanın havadan bombalanması da Vaşinqtona ucuz başa gəlmədi. 2012-ci ilin 12 sentyabrında silahlılar Benqazidə ABŞ konsulluğuna hücum edərək səfir Kristofer Stevansı öldürdülər.

Bundan başqa, hazırda 2 minə qədər ABŞ hərbçisi Suriyadadır. Əsasən ölkənin şimalında kürdlərin nəzarətindəki bölgədə yerləşən amerikalı hərbçilərin Suriyanı tərk edəcəyi ilə bağlı açıqlamanı prezident Tramp ötən ilin dekabrında elan etsə də, bu prosesin bir neçə il uzanacağı gözlənilir.

Müharibə hər zaman hər yerdə böyük fəlakət deməkdir. Amma Yaxın Şərq kimi mürəkkəb bölgədə xarici müdaxilə ilə müşayiət olunan müharibələrin nəticələri daha ağır olur. İngilislərin, rusların Əfqanıstan "təcrübəsi", fransızların Əlcəzairdə, italyanların Liviyada qarşılaşdığı müqavimət göstərdi ki, xarici işlər çox ağır nəticələr doğurur.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

**Qətər və Çin şirkətləri Xəzərin Azərbaycan sektorunda külək elektrik stansiyasının tikintisi ilə bağlı layihədə iştirak etməkdə maraqlıdır. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi nəzdində “Azəralternativenerji” MMC-nin sədri Aqşin Bəkirzadənin dediyinə görə, layihənin maliyyələşdirilməsi ilə bağlı xarici investorlarla danışıqlar davam edir, hansı şirkətlə saziş bağlanacağı hələlik məlum deyil.**

# Xəzərdə külək elektrik stansiyası: mif, yoxsa reallıq...

## İlham Şaban: “Ölkədə alternativ enerji haqqında qanun yoxdursa, bu sahəyə xarici investoru necə cəlb etmək olar?”



Sənaye tipli stansiyanın dənizdə Pirallahı qəsəbəsindən Çilov adasınadək uzanacağı nəzərdə tutulur. Verilən məlumata görə, layihə ilə əlaqədar müvafiq texniki-iqtisadi sənədləşdirmə aparılıb. Stansiyanın gücünün 200 meqavatt təşkil edəcəyi bildirilir.

Maraqlıdır ki, bu stansiyanın tikintisinin planlaşdırılması ilə bağlı ilk məlumatı ölkə prezidentinin fərmanı ilə ləğv olunmuş Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlov uzun illər əvvəl açıqlayıb. Onun 2016-cı ildə xarici mətbuata verdiyi məlumata görə, stansiya Xəzər dənizi hövzəsində ən iri külək elektrik stansiyası olacaq. A.Bədəlov deyib ki, layihənin ümumi dəyəri 300-330 milyon dollar təşkil edir. Stansiyanın gücü 200 MVt olacaq və bu, il ərzində 200 min kubmetr həcmində qaza qənaət etməyə şərait yaradacaq. A.Bədəlovun verdiyi məlumata görə, stansiyanın qurulması ilə xarici şirkətlərin iştirakı təmin edilməklə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) məşğul olacaq və artıq layihəyə Çin, Birləşmiş Ərəb Əmirlikləri və Almaniya şirkətləri maraq göstərir. Onun sözlərinə görə, layihənin tikintisi üç mərhələdən ibarət olacaq: “Stansiyanın obyektlərinin tikintisi, su üzərində yolun inşası, həmçinin platformanın qurulması və elektrik şəbəkəsinin paylanılması işləri aparılacaq. Planlaşdırılır ki, müasir külək parkı regionun turizm sahəsinin inkişafına öz töhfəsini verəcək. İlkin hesablamalara görə, layihə 10 il ərzində özünü doğruldacaq”.

A.Bədəlovun bu açıqlamasından 2 il sonra agentliyə məxsus “Azəralternativenerji” MMC-nin sədri Aqşin Bəkirzadə stansiyanın tikintisində potensial investorların ərəb ölkələri, Çin və Kanadanı təmsil etdiyini deyib. A.Bəkirzadə əlavə edib ki, xarici investorların Azərbaycana cəlb olunması üçün “yaşıl tarif” tətbiq etmək lazımdır. Bu, investisiyaların bərpa olunan enerji mənbələrinin istifadə texnologiyasına cəlb olunması üçün nəzərdə tutulmuş xüsusi mexanizmdir.

Qeyd edək ki, dənizdə külək elektrik stansiyalarının qurulması Avropada getdikcə genişləndirilən bir sahədir. Dənizdə ilk külək stansiyasını 1991-ci ildə Danimarka qursa da, 2000-ci illərdə Böyük Britaniya bu sahədə bütün Avropa ölkələrini qabaqlayıb. Hazırda dünyanın ən böyük belə stansiyası “London Area” məhz bu ölkədə yerləşir.

Dənizdə külək elektrik stansiyasının qurulması böyük maliyyə məsrəfləri tələb edir. Buna görə də Avropa ölkələri müxtəlif yollarla özəl investisiyaların bu sahəyə cəlb olunmasını stimullaşdırırlar. Məsələn, Britaniya hökuməti “yaşıl enerji” paketi çərçivəsində dənizdə külək elektrik stansiyalarının tikintisini stimullaşdırır. Bu paket stansiyanın fəaliyyətdə olduğu müddətdə dövlət və müxtəlif fondlardan subsidiya almasını nəzərdə tutur.

Mütəxəssislərin rəyincə, Azərbaycanda bərpa olunan enerji mənbələri arasında günəş enerjisi illik 5000 mVt, külək enerjisi 4500 mVt, bioloji mənbənin enerjisi 1500 mVt, geotermal - yeraltı istilik enerjisi 800 mVt, kiçik su elektrik stansiyaları 350 mVt-dək enerji potensialına malikdir. Beləliklə, ölkəmizdə 25,3 min mVt həcmindəki məcmu enerji potensialı ilə illik 62,8 milyard kVt/saat elektrik istehsal edilə bilər.

Azərbaycan hökuməti alternativ enerji istehsalını genişləndirmək üçün bir sıra addımlar atır. Hökumət 2030-cu ilə qədər alternativ enerjinin payını ümumi enerji istehsalında 30 faizə çatdırmağı düşünür.

Ötən il Energetika Nazirliyi BP, “Total”, “Eguinor” şirkətlərilə bərpa olunan enerji mənbələrinin imkanlarına dair birgə tədqiqatlar aparmaq barədə niyyət protokolları imzalayıb.

**Eyni zamanda Energetika Nazirliyi Azərbaycanda alternativ və bərpa olunan enerji istehsalı ilə bağlı yeni qanun layihəsi hazırlayır. Qurumun aparat rəhbəri Zaur Məmmədovun dediyinə görə, qanun layihəsi Avropa İttifaqının tətbiq etdiyi “direktiv 3”ə (enerji paketi 3) uyğun hazırlanıb:** ”Avropa ölkələri bu məsələdə müvəffəqiyyətli, qeyri-müvəffəqiyyətli və qismən müvəffəqiyyətli ssenarilər əsasında inkişaf edirlər. Bizim üstünlüyümüz ondan ibarətdir ki, həmin təcrübələri öyrənib Azərbaycan modelində istifadə edək. Bura əsasən özəl sektoru cəlb edəcəyik. Yeni özəl sektor üçün risklər minimuma endirilsin və yaşıl tariflər dövlət üçün əlverişli olsun. Əgər biz bu sahədə xərclərin az olmasına nail olsaq, o zaman alternativ və bərpa olunan enerji növləri üzrə də aşağı tariflərə nail ola biləcəyik".

Nazirlik rəsmisinin sözlərinə görə, əsas məqsəd bərpa olunan enerji sahəsində maya dəyərini aşağı salmaq, subsidiyaları qismən və yaxud tamamilə dayandırmaqdır: “Biz Almaniya, Rumıniya, Polşa, Ukrayna, Yunanıstan, İspaniya, İtaliya kimi ölkələrin təcrübələrini öyrənmişik”.

Z.Məmmədovun dediyinə görə, yeni qanun layihəsi 2019-cu ilin ortalarına qədər hazırlanıb hökumətə təqdim ediləcək.

Aparılan tədqiqatlar göstərir ki, Abşeron iqtisadi rayonunda ərazi yararlılığı və küləyin sürətinə görə külək elektrik stansiyasının qurulması üçün ən yüksək potensiala (orta illik sürət 5.5-7 m/s) malik ərazilər arasında Pirallahı və Çilov adaları da var. Yəni bu adalar arasındakı dəniz sahəsində elektrik stansiyasının yaradılması potensialı var. Lakin bunun üçün bir çox mərhələlərin aşılması gərəkir.

**Enerji məsələləri üzrə mütəxəssis, ekspert İlham Şabanın “Yeni Müsavat”a dediyinə görə, Xəzər dənizində külək elektrik stansiyasının tikiləcəyinə dair məlumatlar 2010-cu ildən verilməyə başlanıb:** “Gələn il artıq 2020-ci ildir, yəni on ildir bu məsələdən danışırlar. İlon Mask 5 ilə kosmosa uçdu. Yəni nəyisə edəcəm deyən təşkilat 10 il ərzində bunu etməliydi. Edə bilməyibsə, demək, söhbət real məsələdən getmir. Bu stansiyanın heç əsaslandırma sənədi belə hazırlanmayıb. Bu halda, söhbət hansı investor cəlbindən, investor marağından gedə bilər?”

**Ekspert Energetika Nazirliyinin alternativ enerji sahəsində əməkdaşlıqla bağlı 3 böyük şirkətlə imzaladığı memorandumu xatırladır:** “Həmin memoranduma əsasən Azərbaycan hökuməti alternativ enerji haqqında qanun hazırlamalıdır. Qanunda həmin şirkətlərin verdiyi tövsiyələr, o cümlədən Avropanın inkişaf etmiş ölkələrinin təcrübəsi nəzərə alınmalıdır. Bu qanun qəbul olunduqdan sonra onlar Azərbaycanın alternativ enerji sektorunda kommersiya tipli müqavilələrin reallaşdırılmasına başlayacaqlar. Qanun yoxdursa, agentlik hansı hüquqi müstəvidə hansısa şirkətlərlə kommersiya şərtlərini müəyyənləşdirəcək? Bu, mümkün deyil axı...”

**İ.Şabanın fikrincə, yalnız hamı üçün bərabər oyun qaydaları müəyyənləşdirən alternativ enerji haqqında qanunun qəbulundan sonra bu sahəyə xarici investisiyaların cəlbi mümkün olacaq.**

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

# “Leş mafiyası”nı durdurmaq olmur - Gəncəyə aparılan inək cəsədi...

## Ekspert həmin inəyin harada məhv edilməsi sualına aydınlıq gətirilməsini istədi

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və aidiyyəti qurumların əməkdaşları daxil olan məlumat əsasında Qazax rayonu, Aşağı Salahlı kəndi ərazisində vətəndaş Musa Cavad oğlu Cəfərova məxsus avtomobilin yük yerinə baxış keçiriblər. Avtomobildə diri çəkisi 315 kq olan istifadəyə yararsız, ölmüş heyvan cəmdəyi aşkar olunub. AQTA-dan foodinfo-ya verilən məlumata görə, ölmüş heyvan cəmdəyindən daxili orqanlarının çıxarıldığı müəyyən olunub. İlkin araşdırmalar zamanı ölü heyvanın satış məqsədilə Qazaxdan Gəncəyə daşındığı məlum olub. Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən aşkarlanan heyvan cəmdəyinin satışının qarşısı alınıb və məhv edilməsi üçün zəruri tədbirlər görülüb. Həmçinin heyvan cəmdəyindən nümunələr götürülərək ekspertizadan keçirilməsi üçün Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyasına göndərilib. Faktla bağlı araşdırma davam etdirilir.**



Ölkə ərazisində qida üçün yararsız olan ölmüş heyvan ətlərini satışa çıxaran şəbəkənin varlığı haqda illərdir ki, məlumatlar dolaşır. “Leşyığanlar mafiyası”, “Leş mafiyası” adlandırılan şəbəkəyə qarşı atılan addımlar yetərsiz görünür. Digər tərəfdən də ölkədə qida sektorunda illərlə davam edən nəzarətsizlik bu sahənin “əl-qol” açmasına, şaxələnməsinə, kök atmasına səbəb olub. Ölkə bazarlarında, supermarketlərdə piştaxtalara kolbasa, sosis şəklində belə ətlərin ayaq açmasına dəlalət edən faktlar yetərincədir. Kənd Təsərrüfatı Nazirliyinin (KTN) açıqladığı rəsmi rəqəmlər də bunu təsdiq edir. Hər ötən il dövriyyədən tonlarla murdar, mənşəyi bəlli olmayan ət çıxarılıb. Dövriyyədən çıxarılmayan, dövlət qurumlarının nəzarətindən kənar qala bilən belə murdar ətlər isə rəsmi statistikanı 10-20 dəfə, bəlkə də artıq üstələyir. Son nəticədə belə ətlər evlərimizə kolbasa, sosis halında, restoranlarda süfrələrə lüləkabab, digər təamlar, küçələrdə dönər şəklində çıxır. Qeyri-şəffaf mühitin yaratdığı mənzərə hazırda budur.

Bəs aşkarlanan bu murdar ətlər, ümumiyyətlə, istifadəyə yararsız qidalar necə məhv edilir?

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyir ki, hər gün Azərbaycanda 10 tonlarla mal, yeni qida məhsulu istifadəyə yararsız hala gəlir, istifadə müddəti keçir:** “Belə malların, qidaların sənəd üzərində ləğv olunması qeyd edilir. Azad İstehlakçılar Birliyi 22 ildir fəaliyyətdədir, cəmi 2 dəfə belə prosesə şahidlik etmişəm. Baxmayaraq ki, dəfələrlə məsələ qaldırılıb ki, məhvetmə prosesində KİV nümayəndələri, ictimaiyyət təmsilçilərinin iştirakı təmin olunsun. Lakin bu məsələyə əhəmiyyət verən şirkət demək olar ki, yoxdur. Şirkətlər belə məhvetmə prosesinin onların prestijinin artmasına xidmət edəcəyini heç düşünmürlər. 1 dəfə Vergilər Nazirliyi və 1 dəfə də Gömrük Komitəsi belə tədbir keçirib. Vaxtı keçmiş mallar aşkar olunduqda dövlət orqanları aktla malı satana təhvil verirlər. Həmin şəxslər də bir saxta sənəd tərtib edib verirlər ki, mal məhv olundu. Vəssalam. Yeni malın məhv edilməsi prosesi qeyri-şəffafdırsa, kim zəmanət verə bilər ki, həmin mal geriyə - piştaxtaya qayıtmayacaq?”

**AİB sədri deyir ki, belə qeyri-şəffaf mühitin aradan qaldırılması üçün Qida Təhlükəsizliyi Agentliyinə müraciət ünvanlayıb:** “Lakin Qida Təhlükəsizliyi Agentliyi ictimai təşkilatlarla iş görmək istəmir. Qeyri-şəffaf mühit qaldıqca şübhələrə də son qoyulmayacaq. Belə hallar aşkar edilibsə, Qazaxda satış üçün heyvan leşi aşkar olunubsa, ictimai məhvetmə təşkil edilməlidir. Hər kəs satıcının da, Gəncədə həmin malı sifariş verən şəxsin kimliyini də bilməlidir. Bilməlidir ki, Qazaxda ölən heyvanı Gəncədəki hansı restoran, hansı kafe, hansı dönərxana sifariş edib. Hamı inanmalıdır ki, aşkar olunan cəsəd məhv olunub. Bunlar olmadıqca, əsaslı şübhələr də qalacaq. Təəssüf ki, bu gün Azərbaycanda təhlükəli qidanın son ünvanı yenə də biz istehlakçılarıq”.

❑ **Elşən MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
Son səhifə
N 111 (7281) 23 may 2019

# 23-cü mərtəbədən yıxılan uşaq sağ qalıb

Çinin Xançjou şəhərində yanğınsöndürənlər 23-cü mərtəbədən yerə yıxılan uşağı xilas ediblər. Bu barədə “Daily Mail” nəşri xəbər verib. İnsident 20 mayda baş verib. 6 yaşlı oğlan qonşusunun mənzilində oynayırmış. Evdə təmir getdiyindən əşyalar hər tərəfə səpələnibmiş. Ustalar balkonlar arasındakı beton plitəni taxta lövhə ilə əvəzlədikləri üçün uşaq qəfil taxtanın üstünə basıb və ventilyasiya şaxtasına yıxılıb.



Oğlan kondisionerin üstünə düşsə də, sağ qalıb. Xilasedicilərə dərhal bu olay barədə məlumat verilib və onlar hadisə yerinə gəliblər. Xilasedicilər uşağa xüsusi alpinist geyimi geyindiriblər, onu sakitləşdirib və yuxarı qaldırıblar. Uşağın şaxtadan çıxarılma prosedura cəmi 6 dəqiqə çəkib. Bundan sonra onu xəstəxanaya çatdırıblar.

Uşağın kürəyində və əlində ciddi olmayan yaralar meydana gəlib.



## Pişik iki qadını düşmən etdi

İtaliyanın Liquriya vilayətində bir pişik məhkəmə predmeti olub. Lenta.ru saytının xəbərinə görə, 4 yaşlı ev heyvanı bir evdə yaşayır, amma həmin evə qonşu olan evdə gecələyirmiş. Bu səbəbdən də hər iki evin sahibəsi olan qadınlar ona fərqli adlar qoyublar - Bantik və Tekila. Onlardan biri polisə müraciət edərək evindən oğurluq baş verdiyini deyib. Qadının sözlərinə görə, qonşusu pişiyini də götürərək köçüb. Prokurorun qərarına görə, ev heyvanı yeni sahibəsindən alınaraq köhnə sahibəsinə geri qaytarılıb. İkinci qadın isə qərardan apelyasiya şikayəti verib.

Yerli qəzetlər isə yazıblar ki, ümumiyyətlə, pişiyin oğurlanması barədə ortada hər hansı sübut yoxdur. Heç onun birinci qadına məxsus olması haqda da sübut yoxdur. Buna görə də onu özü ilə aparan qadına geri qaytarıblar.

Son nəticədə isə qadınlar yenə də pişiyin kimə məxsus olması barədə razılığa gələ bilməyiblər. Ona görə də ev heyvanının oğurlanması barədə iş vətəndaş işləri ilə bağlı məhkəməyə göndərilə bilər.

# 26 kiloluq meymunu zorla arıqladacaqlar

Taylandın paytaxtı Banqkokda turistlərin atdığı yeməklər ucbatından kökələn vəhşi meymunu yaxalayaraq dietaya başladıblar. Bu haqda lenta.ru saytı “Khao Sod” nəşrinə istinadən yazıb. Taylandın Milli Parkları və Təbiəti Mühafizə Nazirliyi elan edib ki, heyvan arıqlayana qədər onu tərəvəz, meyvə və aşağı dərəcədə şəkər, yağ tərkibli qidalarla yemləyəcəklər. Sutka ərzində meymun 400 qramdan artıq yem qəbul etməyəcək. Bundan başqa, onu aktiv şəkildə hərəkətə məcbur edəcəklər. Hazırda meymun 26 kilo ağırlığındadır. Bu, onun normadan 3 dəfə ağır olduğunun sübutudur. Rəsmi dövlət qurumları meymunun fotoları sosial şəbəkədə yayılandan sonra onunla xüsusi maraqlanmağa başlayıblar. Nəhəng qarnına görə meymun hərəkət etməkdə çətinlik çəkirdi. Yerli sakinlər onu “gombul dayı” adlandırıblar.

Veterinar Supakam Kaevçot isə deyib ki, digər meymunlar ona çoxlu yemək gətirsə də, o, bu yeməkləri cavan meymunlar arasında bölürdü. Onun sözlərinə görə, patoloji piylənməyə görə onda ürək xəstəliyi və diabet baş qaldıra bilər.






## Pişik 300 kilometr məsafə qət edib, doğma monastra qayıdıb

Ukraynada Murçik ləqəbli pişik 300 kilometrə yaxın məsafə qət edib və daha sonra doğma monastıra geri qayıdıb. Heyvan monastırda 8 il qalıb. Bütün bu müddət ərzində monastırda çalışanlar ona qulluq ediblər.

Təxmin edilənlərə görə, Murçik yeni yerindən o qədər də məmnun qalmayıb və yenidən monastra qayıdıb. Kilsə əməkdaşları sadiq pişiyi orda görəndə xeyli sevinibləր. Heyvan yorulmuş və arıqlamış görünürdü. Hazırda onun sağlamlığına hər hansı təhlükə yoxdur.

Aprel ayının ortasında xəbər verilmişdi ki, Tayland sahillərində, sahildən 217 kilometr uzaqda olan it xilas edilib. İşçilər iki gün boyunca heyvanın qayğısına qalıblar, ardınca isə onu veterinar klinikaya veriblər.




QOÇ - Pulla bağlı problemləriniz olsa da, qalan məsələlərdə ovqatınız xoş olacaq. Xüsusən də münasibətlər zəminində cərəyan edənlərdən rahatlıq tapacaqsınız. Uzaq yola çıxmayın.

BUĞA - Havaların istiləşməsi sizə mənfi təsir göstərməkdədir. Odur ki, var gücünüzlə sağlamlığınızı qoruyun. Nahardan sonra şəxsi işlərinizdə böyük dəyişikliklər mümkündür.

ƏKİZLƏR - Yaxşı olar ki, bürcünüzün “hakim” olduğu bu ərəfədə hisslərinizi cilovlayasınız. Əks təqdirdə, arzulamadığınız qalmaqala tuş gələcəksiniz. Yeni əlaqələr uğurdan xəbər verir.

XƏRÇƏNG - Ulduzların düzümü səfərə çıxmaq üçün münasib vaxt olduğunu bildirir. Maddi durumunuz imkan verirsə, bundan imtina etməyin. Ətrafınızda olan insanları real qiymətləndirməkdə yanılmayın.

ŞİR - İxtiyarınızda olan bu təqvim sizə düşərli olacaq. Çünki ulduzlar xoş ovqat və qazanc əldə edəcəyinizi bildirir. Oturaq işlərə çox da həvəs göstərməyin. Aktivliyinizi artırın.

QIZ - Günün təhərindən asılı olmayaraq özünüzü bütünlüklə fəaliyyətə həsr etməlisiniz. Münasibət və alqı-satqı məsələlərinə isə həvəs göstərməyiniz məqsədəuyğun deyil. Axşam işgüzar söhbətlər aparmaq sizə səmərə verəcək.

TƏRƏZİ - İxtiyarınızda olan bu bazar günündə heç bir narahatçılığınız gözlənilmir. İşgüzar sövdələşmələrdə iştirak etsəniz, iyunun gəlişinə qədər hansısa probleminiz yaranmayacaq. Pulla bağlı ehtiyatlı olun.

ƏQRƏB - Özünüzü lovğa və ya təkəbbürlü aparmayın. Bu gün sizə sadə görünmək lazımdır. Bu yolla özünüzə qarşı rəğbət oyada bilərsiniz. Günortadan sonra qarşınıza yaxşı adamlar çıxacaq.

OXATAN - Bəri başdan nəzərinizə çatdıraq ki, bu gün başlıca vəzifəniz sağlamlığınızı qorumaq olmalıdır. Digər məsələlərə isə ciddi yanaşmağa ehtiyac yoxdur. Əsas gücünüzü istirahətə verin.

OĞLAQ - İkitərəfli əməkdaşlıq çox uğurludur. Artıq adamlar planlarınızı poza bilər. Tanınmış şəxslərlə əlaqələrinizi dərinləşdirin. Günün ikinci yarısında yeni simalarla görüşləriniz mümkündür.

SUTÖKƏN - Təzadlı bir gün yaşayacaqsınız. Ətrafınızda cərəyan edən situasiyalar gah müsbət, gah da mənfi istiqamətə yönələ bilər. Belə məqamlarda dostlarınızla birgə olmağa çalışın.

BALIQLAR - Sürprizlərlə dolu bir gün yaşayacağınız güman olunur. Ola bilsin ki, bu təqvim taleyinizin ən yaddaqalan tarixinə çevrilsin. Hər cəhətdən buna hazırlaşın. Soyuqqanlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Kişinin üstünə fil düşdü

Cənubi afrikalı ovçu Teunis Bota üstünə ölmüş fil düşdüyü üçün dünyasını dəyişib. Bu barədə “The Daily Telegraph” qəzeti yazır. İnsident 19 mayda baş verib. Belə ki, Bota ilə birgə milli park Xvanqada gəzən ovçuların üstünə qəfil şəkildə üç fil hücum edib. Bota onlara hücum edən fillərdən birinə silahla atəş açıb. Amma o, həmin məqamda arxadan gələn fili fərq etməyib. Arxadan gələn fil onu xortumu ilə göyə qaldırandan sonra yerə vurmaq istəsə də, bu dəfə də digər ovçular cəld tərpəniblər. Onlardan biri həmin filə atəş açaraq öldürüb. Son nəticədə fil yerə yıxılıb və Bota da onun altında qalaraq can verib. Bota mahir ovçu kimi tanınsa da, onun bəzən yersiz cəsarət şouları öz axırına çıxıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 3.060